# AZƏRBAYCAN DİLİ

## METODİK VƏSAİT 2



Layihə

**Farizə Nəbiyeva, Aygün Qasımova,**
**Yeganə Məmmədəliyeva, Həbib Kərimov**
**Süleyman Kərimov, Könül Doxolova**

Xüsusi məktəblərin
**2**-ci sinifləri üçün sadələşdirilmiş proqram əsasında hazırlanmış

# Azərbaycan dili

**fənni üzrə dərsliyin**
## METODİK VƏSAİTİ

Bu nəşrlə bağlı irad və təkliflərinizi
*chashioglu@gmail.com* və *derslik@edu.gov.az*
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

**ÇAŞIOĞLU**

LAYİHƏ

# MÜNDƏRİCAT


1. Giriş........................................................................................................5

2. Şəkil üzrə danışın.....................................................................................6

3. Nağıl qəhrəmanları,fəsillər,günün hissələri.............................................6

4. [A]səsi və A hərfi…................................................................................7

5. [N]səsi və N hərfi…................................................................................8

6. [Ə]səsi və Ə hərfi…................................................................................9

7. [T]səsi və T hərfi…................................................................................10

8. [L]səsi və L hərfi…................................................................................11

9. [M]səsi və M hərfi….............................................................................12

10. [İ]səsi və İ hərfi….................................................................................13

11. [B]səsi və B hərfi…..............................................................................15

12. [R]səsi və R hərfi….............................................................................16

13. [I]səsi və I hərfi…................................................................................17

14. [D]səsi və D hərfi….............................................................................18

15. [Y]səsi və Y hərfi….............................................................................19

16. [O]səsi və O hərfi….............................................................................20

17. [S]səsi və S hərfi…..............................................................................21

18. [U]səsi və U hərfi….............................................................................22

19. [K]səsi və K hərfi….............................................................................24

20. [P]səsi və P hərfi….............................................................................25

21. [Ş]səsi və Ş hərfi….............................................................................26

22. [E]səsi və E hərfi….............................................................................27


LAYİHƏ

23. [V]səsi və V hərfi…....................................................................................28

24. [Z]səsi və Z hərfi…....................................................................................29

25. [Ü]səsi və Ü hərfi…....................................................................................31

26.  [Ö]səsi və Ö hərfi…..................................................................................32

27. [G]səsi və G hərfi…....................................................................................33

28. [Q]səsi və Q hərfi…....................................................................................34

29. [X]səsi və X hərfi…....................................................................................35

30. [Ğ]səsi və Ğ hərfi…....................................................................................37

31. [C]səsi və C hərfi…....................................................................................38

32. [Ç]səsi və Ç hərfi…....................................................................................39

33. [H]səsi və H hərfi…....................................................................................40

34. [F]səsi və F hərfi…....................................................................................41

35. [J]səsi və J hərfi…......................................................................................43

36.Dostluq.........................................................................................................44

37.  Sevimli kitabım..........................................................................................45

38. Arılar və ayı.................................................................................................46

39. İşıqfor...........................................................................................................46

40. Balaca küçük................................................................................................47

41. Bakı...............................................................................................................48

42. Ağlama, Mərcan...........................................................................................49

43. Sağlam olun!.................................................................................................50

44.Əlaçı...............................................................................................................51

LAYİHƏ

45. Düzgün cavablar...........................................................................................52
46. Tütək..............................................................................................................53
47. Ayı balası.......................................................................................................53
48. Saat...............................................................................................................54
49. Yağış..............................................................................................................55
50. Kirpi...............................................................................................................56
51. Ana yurdum...................................................................................................57
52. Zəfər günü.....................................................................................................58
53. Mehriban.......................................................................................................58
54. Gəldi bahar....................................................................................................59
55. «Ana»............................................................................................................60
56. Təmizkar Lalə................................................................................................61
57. Pambıq...........................................................................................................62
58. Yayda.............................................................................................................63

LAYİHƏ

# GİRİŞ

Təqdim olunan dərslik komplekti yüngül və orta intellekt məhdudiyyəti olan şagirdlər üçün nəzərdə tutulan və 3 kitabdan ibarətdir: dərslik, iş dəftəri və müəllimlər üçün metodik vəsait. Dərslik və iş dəftəri elə qurulub ki, dərslikdə keçilən mövzular iş dəftərindəki tapşırıqlarla əhatə olunur və tamamlanır.

Dərslik 2 hissədən ibarətdir:

1. hissə 1-ci sinifdə keçilənlərin təkrarını əhatə edir. 1-ci sinifdə keçilən 16 hərfin təkrarına geniş yer verilir.

2. hissədə yerdə qalan 16 hərfin tədrisinə yer verilib. Dərsliyə daxil olan tapşırıqlar asandan mürəkkəbə doğru tərtib edilmişdir ki, bu isə A və B kateqoriyasında olan uşaqların səviyyəsinə uyğundur. Kitabın 2-ci hissəsi müxtəlif mətnlər əsasında qurulmuş qiraətdən ibarətdir. 2-ci hissədə həmçinin kiçik qrammatik qeydlərə də yer verilmişdir. Mətnlərdə elə mövzulara toxunulmuşdur ki, şagirdlərdə vətənpərvərlik, anaya və vətənə sevgi, dostluq hissləri yaradılır. Mətnlərdə verilən tapşırıqlar həm də 1-ci sinfin 1-ci hissəsini əhatə edən mövzuların təkrarına aiddir.

**MÜƏLLİM:**

– Dərsi təşkil edir

– Motivasiya yaradır

– Problem situasiya yaradır

– Şagirdlərə istiqamət verir

– Problemin həllində onlara metodik köməklik göstərir

İntellekt məhdudiyyəti olan şagirdlər üçün təlim prosesində təhsilin humanistlik prinsipi daha çox gözlənilməlidir. Hər bir şagirdin mövzulara maraq və meyilləri, fiziki və zehni imkanları, psixoloji xüsusiyyətləri təlim prosesində nəzərə alınmalıdır. Hər şeydən əvvəl uşaq şəxsiyyət hesab edilməli, tədris prosesində bərabərhüquqluluq qorunmalıdır. İstənilən situasiyada uşağın şəxsiyyətinin alçaldılmasına yol verilməməlidir.

**İŞ DƏFTƏRİ:**

Dərslikdə keçilən mövzuların şagirdlərin daha dərindən mənimsəməsi və mövzuların təkrarı üçün tapşırıqları əhatə edir. Əldə olunan bilik və bacarıqların möhkəmləndirilməsi və öyrənilənlərin tətbiqi üçün iş dəftəri xüsusi əhəmiyyətə malikdir.

LAYİHƏ

## BİRİNCİ SİNİFDƏ KEÇİLƏNLƏRİN TƏKRARI

**MÖVZU: Şəkil üzrə danışın (1. 2)**

**Təlim məqsədi:**

- Şagird ailə üzvləri və məktəb haqqında məlumat verir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Fərdi iş, böyük qruplarla iş | Diskussiya, beyin həmləsi, müzakirə | Nitq inkişafı, riyaziyyat | Dərslik, məktəb, ailə üzvləri, məktəbli şəkilləri və ya maketləri |

**Motivasiya.** Müəllim uşaqların diqqətini mövzuya yönəltmək məqsədi ilə mövzu nun ya aid şəkli şagirdlərə göstərir:

– Uşaqlar, şəkildə nə görürsünüz? (bağ, sinif)

Müəllim dərslikdəki şəkli şagirdlərə göstərir və qısa məlumat verir.

**Tədqiqat sualı:** Uşaqlar, bağda və sinifdə kimlər var?

**Tədqiqatın aparılması:** Müəllim şəklə əsasən suallar verir.

**1.** Şəkildə nə təsvir olunub?

**2.** Şəkildə kimlər var?

**3.** Ailə üzvləri nə edirlər?

**4.** Sinifdə kimlər var?

**5.** Sinifdə daha nələri görürsünüz?

**Tətbiqetmə.** *Tapşırıq: N 3 (səh. 5)*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

**MÖVZU: Nağıl qəhrəmanları, fəsillər, günün hissələri**

**Təlim məqsədi:**

- Şagird nağıl qəhrəmanları, ilin fəsilləri, günün hissələri haqqında bilikləri təkrarlayır və möhkəmləndirir.

LAYİHƏ

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Fərdi iş, böyük qruplarla iş | Beyin həmləsi, diskussiya, müzakirə | Nitq inkişafı, riyaziyyat | Dərslik, nağıl qəhrəmanları, fəsillərə, günün hissələrinə dair şəkillər |

**Motivasiya.** Müəllim uşaqların diqqətini mövzuya yönəltmək məqsədi ilə üzərində dərslik, nağıl qəhrəmanlarının, ilin fəsillərinin, günün hissələrinin şəkilləri olan kartları şagirdlərə göstərir:

– Uşaqlar, sizin ən çox sevdiyiniz nağıl qəhrəmanı, fəsil hansıdır?

**Tədqiqat sualı:** Şəkildə gördüyünüz hansı nağılın qəhrəmanlarıdır?

**Tədqiqatın aparılması.**

**1.** Hansı fəsilləri tanıyırsınız?

**2.** Günün neçə hissəsi var?

**3.** Hansı nağıl qəhrəmanlarını tanıyırsınız?

**Tətbiqetmə.** *Tapşırıq: N 6,7 (səh.6)*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## MÖVZU: [A] səsi və "a" hərfi

**Təlim məqsədləri:**

- Şagirdlər [A] səsi və "A" hərfini təkrarlayır və möhkəmləndirirlər.
- Sözlərdə "A" hərfinin yerini müəyyən edirlər.
- Böyük "A" və kiçik "a"hərfini yazırlar.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Fərdi iş, böyük qruplarla iş | Beyin həmləsi, diskussiya, müzakirə | Nitq inkişafı, həyat bilgisi, riyaziyyat | Dərslik, şəkillər, maqnitofon |

LAYİHƏ

**Motivasiya.** Müəllim maqnitofonda müxtəlif səsləri (uşaq səsləri, quşların səsi və s.) səsləndirir.

– Uşaqlar, siz nə eşitdiniz? (Fərziyyələr dinlənilir..)

– Bunlar hamısı birlikdə "səs" adlanır. (Müəllim "səs" anlayışı haqqında uşaqlara ətraflı məlumat verir).

Müəllim lövhəyə alma şəklini asaraq, şagirdlərə sual verir:

"Alma" sözü hansı hərflə başlayır?

**Tədqiqat sualı:** Şəkildə gördüyünüz əşyaların adları hansı səslə başlayır?

**Tədqiqatın aparılması:** Dərslikdəki əşya şəkillərinin (ayı, alma, at) adlarının "a" səsi ilə başlandığı şagirdlərə izah olunur. Müəllim hər bir uşağa fərdi yanaşaraq "A a" hərfinin yazılı və çap formasını göstərir.

M: – böyük "A" və kiçik "a" nın çap forması, bunlar isə yasıdır.

**Tətbiqetmə.** *Tapşırıq: N 1, 2, (səh. 7) "Ana" şeiri*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## MÖVZU: [N] səsi və "N" hərfi

**Təlim məqsədləri:**

- Şagirdlər [N] səsi və "N" hərfini təkrarlayır, möhkəmləndirirlər.
- Sözlərdə "N" hərfinin yerini müəyyən edirlər.
- Böyük "N" və kiçik "n" hərfini yazırlar.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Fərdi iş, böyük qruplarla iş | Beyin həmləsi, diskussiya, müzakirə | Nitq inkişafı, həyat bilgisi, riyaziyyat | Dərslik, şəkillər, maqnitofon |

**Motivasiya.** Müəllim şagirdlərə nal göstərərək sual verir. – Bu nədir? (nal)

Müəllim nal sözünün "N" səsi ilə başlandığını izah etdikdən sonra şagirdlərin diqqətini dərsliyə yönəldir.

LAYİHƏ

**Tədqiqat sualı:** Şəkildə gördüyünüz əşyaların adı hansı səslə başlayır?

**Tədqiqatın aparılması.** Dərslikdəki əşya adlarının (nal, nağara, nar) [n] səsi ilə başlandığı şagirdlərə izah olunur.

M: – Böyük “N”və kiçik “n” nın çap forması bunlardır. Böyük “N”və kiçik “n”nın yazı forması isə belədir.

Oxu: Müəllim şagirdlərin diqqətini 9-cu səhifədəki "Nənə və nəvə" şəklinə yönəldir. O, hər bir şagirdə fərdi yanaşaraq, onların aşağıdakı suallarına cavab vermələrini istəyir:

**1.** Şəkildə hara təsvir olunub?

**2.** Şəkildə kimlər var?

**3.** Otaqda nə görürsünüz?

**4.** Nənə və nəvə nə edir?

Uşaqların diqqəti “nənə” və “nəvə” sözlərinin hansı səslə başlandığına yönəldilir.

**Tətbiqetmə.** *Tapşırıq: N 1, 2, 3 (səh. 8), N 1, 2 səh 9*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## MÖVZU: [Ə] səsi və “Ə” hərfi

**Təlim məqsədləri:**

- Şagirdlər [Ə] səsini, “ə” hərfini təkrarlayır və möhkəmləndirirlər.
- Sözlərdə ‘‘Ə’’ hərfinin yerini müəyyən edirlər.
- Şəkildə gördüklərini adlandırırlar.
- Hecaları və sözləri oxuyurlar.
- Böyük “Ə” və kiçik “ə” hərfini müəyyən olunmuş xətt boyunca düzgün yazırlar.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Fərdi iş, böyük qruplarla iş | Beyin həmləsi, diskussiya, müzakirə | Nitq inkişafı, həyat bilgisi, riyaziyyat | Dərslik, şəkillər, maqnitofon |

LAYİHƏ

**Motivasiya.** Müəllim lövhədən asılmış ələk şəklini (və ya ələyin özünü) şagirdlərə göstərir: – Uşaqlar, bu nə şəklidir? (ələk) (Ələk haqqında uşaqlara məlumat verir).

– Ələk sözü hansı səslə başlayır? ([ə]səsi ilə)

Biz bu gün [ə] səsi və "ə" hərfini təkrarlayacağıq. Şagirdlərin diqqəti dərsliyə yönəldir.

**Tədqiqat sualı.** Şəkildə gördüyünüz əşyaların adlar hansı səslə başlayır?

**Tədqiqatın aparılması.** Dərslikdəki əşya adlarının (ələk, əncir, ərik, əl) [ə] səsi ilə başlandığı şagirdlərə izah olunur.

M: – Böyük "Ə", kiçik "ə" nin çap forması budur. Böyük "Ə", kiçik "ə"nin yazı forması belədir.

Oxu: Müəllim şagirdlərin diqqətini 11-ci səhifədəki "Əsmər və Əli" şəklinə yönəldir. O, hər bir şagirdə fərdi yanaşaraq, onların aşağıdakı suallara cavab vermələrini istəyir.

**1.** Şəkildə hara təsvir olunub?

**2.** Əli və Əsmər nə edirlər?

**3.** Şəkildə daha nə görürsünüz?

**4.** Şəkildə [ə] səsinin sözlər hansılardır?

Şagirdlərin diqqəti "Əsmər" və "Əli" sözlərinin hansı səslə başlandığına yönəldilir.

**Tətbiqetmə.** *Tapşırıq: N 1, 2, 3, 4 (səh.10), 1, 2 səh 11.*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## MÖVZU: [T] səsi və "T" hərfi

**Təlim məqsədləri:**

- Şagirdlər [T] səsi və "T" hərfini təkrarlayır və möhkəmləndirirlər.
- Sözlərdə [T] səsinin yerini müəyyən edirlər.
- "T" hərfi ilə verilən heca və sözləri oxuyurlar.
- Böyük "T" və kiçik "t" hərfini müəyyən olunmuş xətt boyunca yazırlar.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Fərdi iş, böyük qruplarla iş | Beyin həmləsi, diskussiya, müzakirə | Nitq inkişafı, həyat bilgisi, riyaziyyat | Dərslik, şəkillər, maqnitofon |

LAYİHƏ

**Motivasiya.** Müəllim keçmiş dərsin ("Ə" hərfi) sorğusu zamanı şagirdlərlə "Kim çox bilir?"oyunu keçirir.

– Uşaqlar, biz bu oyunda nədən istifadə etdik? (topdan) Müəllim əlindəki topu uşaqlara göstərir və soruşur:

– "Top" sözü hansı səslə başlayır? ([T] səsi ilə) Biz bu gün [T] səsi və "T" hərfiilə tanış olacağıq.

Şagirdlərin diqqətini dərslikdəki (səhifə 12) şəkillərə yönəldir.

**Tədqiqat sualı:** Şəkildəki əşyaların adları hansı səslə başlayır?

**Tədqiqatın aparılması.** Dərslikdəki əşya adlarının (top, toyuq, turp, tort) [t] səsi ilə başlandığı şagirdlərə izah olunur.

M: – böyük "T" və kiçik "t" hərfinin çap formasıdır. Böyük "T", kiçik "t"nın yazı formasıdır.

Oxu: Müəllim şagirdlərin diqqətini 11-ci səhifədəki "Ata" və "Tahir" şəklinə yönəldir. O, hər bir şagirdə fərdi yanaşaraq, onların aşağıdaki suallarına cavab vərmələrini istəyir.

**1.** Şəkildə hara təsvirolunub?

**2.** Şəkildə kimlər var?

**3.** Ata ilə Tahir nə edir?

**4.** Şəkildə daha nə görürsən?

Diqqət "ata və Tahir" sözlərindəki "t"səsinə yönəldilir)

**Tətbiqetmə.** *Tapşırıq: N 1, 2, 3 (səh.12) və1, 2 səh 13*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## MÖVZU: [L] səsi və "L" hərfi

**Təlim məqsədləri:**

- Şagirdlər [L] səsi və "L" hərfini təkrarlayır və möhkəmləndirirlər.
- "L" hərfinin sözlərdə yerini müəyyən edirlər.
- Heca və sözləri oxuyurlar.
- Böyük "L" və kiçik "l" hərfini yazırlar.

LAYİHƏ

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Fərdi iş, böyük qruplarla iş | Beyin həmləsi, diskussiya, müzakirə | Nitq inkişafı, həyat bilgisi, riyaziyyat | Dərslik, şəkillər, maqnitofon |

**Motivasiya.** Müəllim lövhədən asılmış limon şəklini (və ya limonun özünü) şagirdlərə göstərir.

– Uşaqlar, bu nə şəklidir? (limon)(Limon haqqında uşaqlara məlumat verir)

– Limon sözü hansı səslə başlayır? ([L] səsi ilə)

– Biz bu gün [l] səsi və “l” hərfini təkrarlayacağıq. Müəllim şagirdlərin diqqətini dərsliyə yönəldir.

**Tədqiqat sualı:** Şəkildə gördüyünüz əşyaların adları hansı səslə başlayır?

**Tədqiqatın aparılması.** Dərslikdəki əşya adlarının (lalə, limon, lampa) [l] səsi ilə başladığı şagirdlərə izah olunur.

M: – böyük “L”, kiçik “l” nın çap formasıdır. Bu isə böyük  böyük “L”, kiçik “l”nın yazı formasıdır.

Oxu: Müəllim şagirdlərin diqqətini 15-ci səhifədəki “Limon bağında” şəklinə yönəldir. Müəllim hər bir şagirdə fərdi yanaşaraq, onların aşağıdakı suallarına cavab vermələrini  istəyir:

**1.** Şəkildə hara təsvir olunub?

**2.** Uşaqlar nə edirlər?

**3.** Loğman limonuLəmana verərkən nə deyir?

Uşaqların diqqəti “limon” sözündəki “l” səsinə yönəldilir)

**Tətbiqetmə.** *Tapşırıq: N 1, 2, 3, (səh. 14) və 1, 2 səh 15*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## MÖVZU:  [M] səsi və “M” hərfi

**Təlim məqsədləri:**

- Şagirdlər [M] səsi və “M” hərfini təkrarlayır və möhkəmləndirirlər.
- ‘‘M’’hərfinin sözlərdə yerini müəyyən edirlər.
- Heca və sözləri oxuyurlar.
- Böyük “M” kiçik və “m”hərfini yazırlar.

LAYİHƏ

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Fərdi iş, böyük qruplarla iş | Beyin həmləsi, diskussiya, müzakirə | Nitq inkişafı, həyat bilgisi, riyaziyyat | Dərslik, şəkillər, maqnitofon |

**Motivasiya.** Müəllim şagirdlərin fikrini mövzuya yönəltmək məqsədi ilə onlara üzərində meyvə şəkilləri olan kartları şagirdlərə göstərir və sual verir:

– Uşaqlar, bunları ümumi adla adlandırsaq, nə ad verərik? (meyvə)

Müəllim dərslikdəki şəkilləri şagirdlərə göstərir və onlar haqqında qısa məlumat verir.

**Tədqiqat sualı:** Şəkildə gördüyünüz əşyaların adları hansı səslə başlayır?

**Tədqiqatın aparılması.** Dərslikdəki əşya şəkillərinin (maşın, mişar, maral, mala, və s.) adlarının [m] səsi ilə başlandığı müəyyən olunur.

Müəllim hər uşağa fərdi yanaşaraq "m" hərfinin çap və yazı formasını göstərir

Oxu: Müəllim şagirdlərin diqqətini 17-ci səhifədəki "Məktəbli Murad" şəklinə yönəldir. O hər bir şagirdə fərdi yanaşaraq, onların aşağıdakı suallarına cavab vermələrini istəyir.

**1.** Murad yuxudan oyanıb nə edir?

**2.** Murad hansı paltarını geyinir?

**3.** Çarpayının yanında nə var?

**4.** Murad hara gedir?

**5.** Sinif otağında kimlər var?

**6.** Murad nə edir?

Şagirdlərin diqqəti "Murad, meymun, məktəb, müəllim" sözlərindəki "m"səsinə yönəldilir.

**Tətbiqetmə.** *Tapşırıq: N 1, 2, 3 (səh. 16) və 2, 3 (səh.17).*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## MÖVZU: [İ] səsi və "i" hərfi

**Təlim məqsədləri:**

- [İ] səsi və "İ" hərfini təkrarlayır və möhkəmləndiririlər.
- "İ'' hərfinin sözlərdə yerini müəyyən edirlər.
- Heca və sözləri oxuyurlar.
- Böyük "İ" və kiçik "i"hərfini yazırlar.

LAYİHƏ

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Fərdi iş, böyük qruplarla iş | Beyin həmləsi, diskussiya, müzakirə | Nitq inkişafı, həyat bilgisi, riyaziyyat | Dərslik, şəkillər, maqnitofon |

**Motivasiya.** Müəllim şagirdlərin fikrini dərsə yönəltmək məqsədi ilə üzərində ilan olan şəkli kartı göstərərək sual verir:

– Uşaqlar, şəkildə gördüyünüz nədir? (ilan).

– İlan heyvandır və vəhşi heyvanlar qrupuna daxildir.

– Bəs “ilan“ hansı səslə başlayır? [i səsi ilə]

Müəllim şagirdlərin diqqətini dərslikdəki şəkillərə yönəldir.

**Tədqiqat sualı:** Şəkildə gördüyünüz əşyaların adları hansı səslə başlayır?

**Tədqiqatın aparılması.** Dərslikdəki əşya şəkillərinin (ilan, inək, it, iynə və s.) adlarının [i] səsi ilə başlandığı müəyyən olunur.

Müəllim hər uşağa fərdi yanaşaraq, “i” hərfinin çap və yazı formalar göstərir.

Oxu: Müəllim şagirdlərin diqqətini 19-cu səhifədəki “İlqar fermada” şəklinə yönəldir. O hər bir şagirdə fərdi yanaşaraq, onların aşağıdakı suallara cavab vermələrini istəyir.

**1.** Şəkildə hara təsvir olunub?

**2.** Fermada kimlər var?

**3.** Fermada hansı heyvanları görürsən?

**4.** İlqar nə edir?

Uşaqların diqqəti “İlqar, it, inək, ilbiz, keçi” sözlərindəki “i” səsinə yönəldilir.

**Tətbiqetmə.** *Tapşırıq: N 1, 2, 3 (səh. 18) və 1, 2, 3 (səh. 19).*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

LAYİHƏ

**MÖVZU: [B] səsi və “B” hərfi**

**Təlim məqsədləri:**

- Şagirdlər [B] səsi və “B” hərfini təkrarlayır və möhkəmləndirirlər.
- “B” hərfinin sözlərdə yerini müəyyən edirlər.
- Səsləri birləşdirərək hecaları oxuyurlar.
- Heca və sözləri oxuyurlar.
- Böyük “B” və kiçik “b” hərflərini yazırlar.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Fərdi iş, böyük qruplarla iş | Beyin həmləsi, diskussiya, müzakirə | Nitq inkişafı, həyat bilgisi, riyaziyyat | Dərslik, şəkillər, maqnitofon |

**Motivasiya.** Müəllim şagirdlərin diqqətini mövzuya yönəltmək məqsədi ilə onlara göldə üzən balıq şəkillərini göstərərək sual verir:

– Uşaqlar, gölün içində üzən nədir? (balıq)

– Bəs balıq hansı səslə başlayır? (b səsi ilə)

Müəllim şagirdlərin diqqətini dərslikdəki şəkillərə yönəldir.

**Tədqiqat sualı:** Şəkildə gördüyünüz əşyaların adları hansı səslə başlayır?

**Tədqiqatın aparılması.** Dərslikdəki əşya şəkillərinin adlarının (balıq, bibər, bayraq, banan) “b” hərfi ilə başlandığı müəyyən edilir. Hərfin yazı və çap forması lövhədə və dərslikdə şagirdlərə göstərilir.

Oxu: Müəllim şagirdlərin diqqətini 21-ci səhifədəki “Babəkin ad günü” şəklinə yönəldir. O hər bir şagirdə fərdi yanaşaraq, onların aşağıdakı suallara cavab vermələrini istəyir.

**1.** Dostları Babəkgilə nə üçün gəlmişdi?

**2.** Babəkin neçə yaşı olurdu?

**3.** Dostlar ona nə almışdılar?

**4.** Atası balaca Babəkə nə almışdı?

**5.** Hansı hədiyyə Babəki çox sevindirdi?

LAYİHƏ

Şagirdlərin diqqəti "Babək, bayraq, balıq" sözlərindəki "b" səsinə yönəldilir.
**Tətbiqetmə.** *Tapşırıq: N 1, 2, 3 (səh. 20) və 1, 2, 3 (səh. 21).*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

**MÖVZU: [R] səsi və "R" hərfi**

**Təlim məqsədləri:**

- Şagirdlər [R] səsi və "R" hərfini təkrarlayır və möhkəmləndirirlər.
- "R" hərfinin sözlərdə yerini müəyyən edirlər.
- Heca və sözləri oxuyurlar.
- Səsləri birləşdirir və oxuyurlar.
- Böyük "R" və kiçik "r" hərfini yazırlar.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Fərdi iş, böyük qruplarla iş | Beyin həmləsi, diskussiya, müzakirə | Nitq inkişafı, həyat bilgisi, riyaziyyat | Dərslik, şəkillər, maqnitofon |

**Motivasiya.** Müəllim şagirdlərin diqqətini dərslikdəki şəkillərə yönəldir. Rəf, raket sözlərinin "r" hərfi ilə başlandığı uşaqlara izah olunur.

**Tədqiqat sualı:** Şəkildə gördüyünüz əşyaların adı hansı səslə başlayır?

**Tədqiqatın aparılması.** Dərslikdəki əşya şəkillərinin adlarının (raket, rəf, radio) "r" hərfi ilə başladığı müəyyən edilir. Hərfin yazı və çap forması lövhədə və dərslikdə şagirdlərə göstərilir.

Oxu: Müəllim şagirdlərin diqqətini 23-cü səhifədəki "Rəssam" şəklinə yönəldir. O, hər bir şagirdə fərdi yanaşaraq, onların aşağıdakı suallara cavab vermələrini istəyir.

**1.** Şəkildə nə görürsən?
**2.** Rəssamın otağında daha nə var?
**3.** Uşaqların geyimlərini təsvir et.

Şagirdlərin diqqəti "rəssam, rəng, raket, robot" sözlərindəki "r" səsinə yönəldilir.
**Tətbiqetmə.** *Tapşırıq: N 1, 2, 3 (səh. 22) və 1, 2, 3 (səh. 23)*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

LAYİHƏ

**MÖVZU: [I] səsi və "I" hərfi**

**Təlim məqsədləri:**

- Şagirdlər [I] səsi və "I" hərfini təkrarlayır və möhkəmləndirirlər.
- "I"hərfinin sözlərdə yerini müəyyən edirlər.
- Heca və sözləri oxuyurlar.
- Böyük "I" və kiçik "ı" hərfini yazırlar.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Fərdi iş, böyük qruplarla iş | Beyin həmləsi, diskussiya, müzakirə | Nitq inkişafı, həyat bilgisi, riyaziyyat | Dərslik, şəkillər, maqnitofon |

**Motivasiya.** Müəllim şagirdlərin diqqətini mövzuya yönəltmək məqsədi ilə onlara ayı və arı şəkillərini göstərib sual verir:

– Uşaqlar, şəkildə hansı heyvan və həşərat təsvir olunub? (ayı, arı)

– Uşaqlar, ayı və arı sözlərinin sonuncu hərfləri hansı hərfdir? (ı)

**Tədqiqat sualı:** Şəkildəki adlar hansı səslə bitir?

**Tədqiqatın aparılması.** Dərslikdəki əşya şəkillərinin adlarının (ayı, arı, qaşıq, altı) tərkibində "ı" hərfinin olduğu müəyyən edilir. Hərfin yazı və çap forması lövhədə və dərslikdə şagirdlərə göstərilir.

Oxu: Müəllim şagirdlərin diqqətini 25-ci səhifədəki "Ayının yuxusu" şəklinə yönəldir. O hər bir sagirdə fərdi yanaşaraq, onların aşağıdakı suallara cavab vermələrini istəyir.

**1.** Şəkildə nə görürsən?

**2.** Ayı yuxusunda nə görür?

**3.** Ayı yuxusunda nə görür?

Şagirdlərin diqqəti "ayı, arı, qarışqa, tısbağa" sözündəki "ı" səsinə yönəldilir)

**Tətbiqetmə:** *Tapşırıq: N 1, 2, 3 (səh. 24) və 1, 2, 3, 4 (səh. 25)*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

LAYİHƏ

**MÖVZU: [D] səsi və "D" hərfi**

**Təlim məqsədləri:**

- Şagirdlər [D] səsi və "D" hərfini təkrarlayır və möhkəmləndirirlər.
- Sözlərdə "D" hərfinin yerini müəyyən edirlər.
- Heca və sözləri oxuyurlar.
- Böyük "D" və kiçik "d" hərfini yazırlar.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Fərdi iş, böyük qruplarla iş | Beyin həmləsi, diskussiya, müzakirə | Nitq inkişafı, həyat bilgisi, riyaziyyat | Dərslik, şəkillər, maqnitofon |

**Motivasiya.** Müəllim şagirdlərə şəkillər göstərir və sual verir:

– Şəkildə nə görürsünüz? (daraq, dəvə)

– Bu sözlərin əvvəlində hansı səsi eşitdiniz? ([D] səsini).

– Biz bu gün [D] səsi və hərfini təkrarlayacağıq.

Müəllim şagirdlərin diqqətini dərslikdəki şəkillərə yönəldir.

**Tədqiqat sualı:** Şəkildəki adlar hansı səslə başlayır?

**Tədqiqatın aparılması.** Dərslikdəki əşya şəkillərinin adlarının (daraq, dəvə, dəftər, dovşan, bulud) tərkibində "d" hərfi olduğu müəyyən edilir. Hərfin yazı və çap forması lövhədə və dərslikdə şagirdlərə göstərilir.

Oxu: Müəllim şagirdlərin diqqətini 27-ci səhifədəki "Dostlar" şəklinə yönəldir. Müəllim hər bir sagirdə fərdi yanaşaraq, onların aşağıdakı suallara cavab vermələrini istəyir.

**1.** Maşında olan dostların adı nədir?

**2.** Maşın nə üçün dayandı?

**3.** Dovşan daşı nə üçün qaldıra bilmədi?

**4.** Sonda daşı necə qaldırdılar?

Şagirdlərin diqqəti "dovşan, daş, dost" sözlərindəki "d" səsinə yönəldilir.

**Tətbiqetmə.** *Tapşırıq: N 1, 2, 3 (səh. 26) və tapşırıq 1, 2, 3 (səh. 27)*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

LAYİHƏ

## MÖVZU: [Y] səsi və "Y" hərfi

**Təlim məqsədləri:**

- Şagirdlər [Y] səsi və "Y" hərfini təkrarlayır və möhkəmləndirirlər.
- Sözlərdə "Y" hərfinin yerini müəyyən edirlər.
- Heca və sözləri oxuyurlar.
- Böyük "Y" və kiçik "y"hərfini yazırlar.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Fərdi iş, böyük qruplarla iş | Beyin həmləsi, diskussiya, müzakirə | Nitq inkişafı, həyat bilgisi, riyaziyyat | Dərslik, şəkillər, maqnitofon |

**Motivasiya.** "Yumurta" sözü hansı səslə başlayır? ([Y] səsi ilə)

[Y] səsi ilə başlayan bir neçə söz deyilir. Müəllim elan edir: –Bu gün biz [Y] səsi və "Y" hərfi ilə tanış olacağıq. Şagirdlərin diqqətini dərslikdəki şəkillərə yönəldir.

**Tədqiqat sualı:** Şəkildəki əşyaların adları hansı səslə başlayır?

**Tədqiqatın aparılması:** Şəkillərdəki əşya adlarında [Y] səsinin olduğu müəyyən edilir. Hər bir şagirdə fərdi yanaşaraq, hərfin çap və yazı forması göstərilir. Hərfin sözün müxtəlif yerlərində (əvvəldə, ortada, axırda) işləndiyi qeyd olunur.

Oxu: Müəllim şagirdlərin diqqətini 29-cu səhifədəki "Yayda" şəklinə yönəldir. O hər bir sagirdə fərdi yanaşaraq, onların aşağıdakı suallara cavab vermələrini istəyir.

**1.** Şəkildə hansı fəsil təsvir olunub?

**2.** Şəkildə kimlər var?

**3.** Ana nə edir?

**4.** Baba və nəvə nə edir?

**5.** Şəkildə daha nə görürsən?

Şagirdlərin diqqəti "yay, yaba, taya, yemiş" sözlərindəki "y"səsinə yönəldilir)

**Tətbiqetmə.** *Tapşırıq: N 1, 2, 3, 4 (səh. 28) və tapşırıq 1, 2, 3 (səh. 29)*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

LAYİHƏ

**MÖVZU: [O] səsi və “O” hərfi**

**Təlim məqsədi:**

- Şagirdlər [O] səsi və “O” hərfini təkrarlayır və möhkəmləndirirlər.
- Sözlərdə “O” hərfinin yerini müəyyən edirlər.
- Heca və sözləri oxuyurlar.
- Böyük “O” və kiçik “o” hərfini yazırlar.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Kollektiv iş, fərdi iş | Diskussiya və müşahidə | Nitq inkişafı | Dərslik, şəkillər, maqnitofon |

**Motivasiya.** Müəllim “ovçu” şəklini şagirdlərə göstərərək sual verir:

– Uşaqlar, şəkildə təsvir olunan kimdir? (ovçu səsi ilə)

– Ovçu sözü hansı səslə başlayır? [O]

– Biz bu gün [O] səsi və “O” hərfini təkrarlayacağıq.

Müəllim şagirdlərin diqqətini dərslikdəki şəkillərə yönəldir.

**Tədqiqat sualı:** Şəkildəki adların hansında [O] səsi vardır?

**Tədqiqatın aparılması.** Şəkillərdəki adlarda [O] səsinin olduğu müəyyən olunur, (odun, ot, pianino, on). Hərfin yazı və çap forması lövhədə və dərslikdə şagirdlərə göstərilir.

Oxu: Oxuyaq bölməsindəki hecalar və səhifə 30-dakı 3 və 4-cü tapşırıqda sözlər şagirdlər tərəfindən oxunur. Hecaların və sözlərin yadda qalması üçün oxuduqdan sonra səsli tələffüz edilir.

Müəllim şagirdlərin diqqətini 31-ci səhifədəki “Orxanın oyuncaqları” şəklinə yönəldir. O hər bir şagirdə fərdi yanaşaraq, onların aşağıdakı suallarına cavab vermələrini istəyir:

**1.** Şəkildə hara təsvir olunub?

**2.** Orxan nə edir?

**3.** Orxanın hansı oyuncaqları var?

**4.** Otaqda daha nə görürsən?

Şagirdlərin diqqəti “oyuncaq, xoruz, domino, dovşan, radio, pianino” sözlərindəki “o” səsinə yönəldilir)

LAYİHƏ

**Tətbiqetmə.** *Tapşırıq: N 1, 2, 3 (səh. 30) və 1, 2, 3 (səh. 31)*

Səhifə 31, tapşırıq 3-də sözlər oxunduqdan sonra dəftərə yazılır.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır

## MÖVZU: [S] səsi və "S" hərfi

**Təlim məqsədləri:**

- Şagirdlər [S] səsi və "S" hərfini təkrarlayır və möhkəmləndirirlər.
- Sözlərdə "S" hərfinin yerini müəyyən edirlər.
- Heca və sözləri oxuyurlar.
- Böyük "S" və kiçik "s" hərfini yazırlar.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Kollektiv iş, fərdi iş | Diskussiya və müşahidə | Nitq inkişafı | Dərslik, şəkillər, maqnitofon |

**Motivasiya.** Müəllim şagirdlərə, üçün "Saat" mahnısını səsləndirir:

Saatımız gündüz-gecə
çıq-çıq-çıq-çıq işlədikcə
Saatımız gündüz gecə
çıq-çıq-çıq-çıq işlədikcə
Hər anı, hər dəqiqəni
Öyrənirik, görün, necə.
Hər anı, hər dəqiqəni
Öyrənirik, görün necə
çıq-çıq-çıq-çıq-çıq-çıq-çıq-çıq

– Bu mahnıda söhbət nədən gedir? (saatdan)

Şagirdlər sualı cavablandırdıqdan sonra müəllim uşaqlardan "saat" sözündə ilk hansı səsi eşitdiklərini soruşur [S səsini].

Müəllim şagirdlərin diqqətini dərslikdəki şəkillərə yönəldir.

LAYİHƏ

**Tədqiqat sualı:** Şəkildəki adların hansında [S] səsi vardır?

**Tədqiqatın aparılması.** Şəkillərdəki adlarda [S] səsinin olduğu müəyyən olunur. (saat, səbət, soğan, sünbül, siçan, qəfəs). Hər bir şagirdə fərdi yanaşaraq, hərfin çap və yazı forması göstərilir.

Oxu: Oxuyaq bölməsindəki hecalar və səhifə 32-də 3 və 4-cü tapşırıqda olan sözlər şagirdlər tərəfindən oxunur. Hecaların və sözlərin yadda qalması üçün onları oxuduqdan sonra səsli tələffüz edilir.

Müəllim şagirdlərin diqqətini 33-cü səhifədəki "Saat" şəklinə yönəldir. Hər bir şagirdə fərdi yanaşaraq, onların aşağıdakı suallarına cavab vermələrini istəyir.

**1.** Şəkildə hara təsvir olunub?

**2.** Otaqda kimlər var?

**3.** Sona nə edir?

**4.** Otaqda daha nə görürsən?

Şagirdlərin diqqəti "qəfəs, saat, stol, stul, Sona" sözündəki "s" səsinə yönəldilir)

**Tətbiqetmə.** *Tapşırıq: N 1, 2, 3, 4 (səh. 32) və 1, 2, 3 (səh. 33)*

Səhifə 33, tapşırıq 3-də verilən sözlər oxunduqdan sonra dəftərə yazılır.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## MÖVZU: [U] səsi və "U" hərfi

**Təlim məqsədləri:**

- Şagirdlər [U] səsi və "U" hərfini təkrarlayır və möhkəmləndirirlər.
- Sözlərdə "U" hərfinin yerini müəyyən edirlər.
- Heca və sözləri oxuyurlar.
- Böyük "U" və kiçik "u" hərfini yazırlar.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Kollektiv iş, fərdi iş | Diskussiya və müşahidə | Nitq inkişafı | Dərslik, şəkillər, maqnitofon |

**Motivasiya.** Müəllim şagirdlərə sinif otağındakı Azərbaycan bayrağını göstərərək sual verir:

LAYİHƏ

– Uşaqlar, bayrağımızın üzərində nə təsvir olunub? (ay, ulduz şəkilləri)

– "Ulduz" sözü hansı səslə başlayır? [U səsi ilə]

Aşağıdakı şeir də səsləndirilə bilər:

Uğur baxıb göylərə,
Dedi: - Usta olacam!
Uca bir qüllə tikib,
Ulduzlara çatacam!

Şeirdə "ulduz" sözündən başqa, tərkibində [u] səsi olan digər sözlər də müəyyən olunur. – Biz bu gün [U] səsi və "U" hərfini təkrarlayacağıq.

Şagirdlərin diqqətini dərslikdəki şəkillərə yönəldir.

**Tədqiqat sualı.** Şəkildəki adların hansında [U] səsi vardır?

**Tədqiqatın aparılması:** Şəkillərdəki adlarda [U] səsinin olduğu müəyyən olunur. (ulduz, usta, uşaq, ud, un, qutu). Hər bir şagirdə fərdi yanaşaraq, hərfin çap və yazı forması göstərilir.

Oxu: Oxuyaq bölməsindəki hecalar, səhifə 34-də 4 və 5-ci tapşırıqdakı sözlər şagirdlər tərəfindən oxunur. Hecaların və sözlərin yadda qalması üçün oxuduqdan sonra səsli tələffüz edilir.

Müəllim şagirdlərin diqqətini 35-ci səhifədəki "ulduz" şəklinə yönəldir. O hər bir şagirdə fərdi yanaşaraq, onların aşağıdakı suallarına cavab vermələrini istəyir:

**1.** Şəkildə hara təsvir olunub?

**2.** Uşaq nə edir?

**3.** Şəkildə daha nə görürsünüz?

Şagirdlərin diqqəti "ulduz, ud, quzu, ulaq, xoruz, armud" sözündəki "u" səsinə yönəldilir)

**Tətbiqetmə.** *Tapşırıq: N 1, 2, 3, 4, 5 (səh. 34) və 1, 2, 3 (səh. 35)*

Səhifə 35, tapşırıq 3-dəki sözlər oxunduqdan sonra dəftərə yazılır.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

LAYİHƏ

**MÖVZU: K səsi və "K" hərfi**

**Təlim məqsədləri:**

- [K] səsi və"K" hərfini təkrarlayır və möhkəmləndirirlər.
- [K] səsinin sözlərdə yerini müəyyən edirlər.
- Heca və sözləri oxuyurlar.
- Böyük "K" və kiçik "k" hərfini yazırlar.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Kollektiv iş, fərdi iş | Diskussiya və müşahidə | Nitq inkişafı | Dərslik, şəkillər, maqnitofon |

**Motivasiya.** Müəllim motivasiya məqsədi ilə lövhəyə Kosa və Keçəlin şəkillərini asır və uşaqlara sual verir:

– Uşaqlar, şəkildə gördükləriniz kimdir? (Kosa və Keçəl)

– Kosa və keçəl sözlərində ilk hansı səsi eşidirsiniz? [k səsini].

Müəllim tərkibində [k] səsi olan sözləri səsləndirir. Şagirdlərin diqqətini dərslikdəki şəkillərə yönəldir.

**Tədqiqat sualı:** Şəkildəki adların hansında [K] səsi vardır?

**Tədqiqatın aparılması.** Şəkillərdəki adlarda [K] səsinin olduğu müəyyən olunur. (keçi, körpü, kartof, kələm, kök, inək). Hər bir şagirdə fərdi yanaşaraq, hərfin çap və yazı formalar göstərilir.

Oxu: "Oxuyaq" bölməsindəki hecalar və səhifə 36-da, 4 və 5-ci tapşırıqlardakı sözlər şagirdlər tərəfindən oxunur. Hecaların və sözlərin yadda qalması üçün oxuduqdan sonra səsli tələffüz edilir.

Müəllim şagirdlərə [K] səsinin 2 cür tələffüz olunduğunu bildirir və nümunələr göstərir (kənar, küknar, kvadrat, kartof).

Müəllim şagirdlərin diqqətini 37-ci səhifədəki "Kəndimizdə" şəklinə yönəldir. O hər bir şagirdə fərdi yanaşaraq, onların aşağıdakı suallarına cavab vermələrini istəyir:

**1.** Şəkildə hara təsvir olunub?

**2.** Baba və Kənan nə edir?

**3.** Şəkildə daha nə görürsən?

LAYİHƏ

Onların diqqəti “inək, kirpi, keçi, Kənan, kənd” sözlərindəki “k” səsinə yönəldilir

**Tətbiqetmə.** *Tapşırıq: N 1, 2, 4, 5 (səh. 36) və 1, 2, 3, (səh. 37)*

Səhifə 37, tapşırıq 3-də olan sözlər oxunduqdan sonra dəftərə yazılır.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## MÖVZU: [P] səsi və “P” hərfi

**Təlim məqsədləri:**

- Şagirdlər [P] səsi və “P” hərfini tanıyırlar.
- “P” hərfinin sözlərdə yerini müəyyən edirlər.
- Heca və sözləri oxuyurlar.
- Böyük “P” və kiçik “p”hərfini yazırlar.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Kollektiv iş, fərdi iş | Diskussiya və müşahidə | Nitq inkişafı, həyat bilgisi, riyaziyyat | Dərslik, şəkillər, maqnitofon |

**Motivasiya.** Müəllim şagirdlərdən kitab və dəftərlərinin harada olduğunu soruşur. Uşaqlar “partanın üzərində” cavabını verirlər.

– Uşaqlar, bu nədir? (parta)

– “Parta” sözü hansı səslə başlayır? ([p] səsi ilə)

– Biz bu gün [p] səsi və “p” hərfini keçəcəyik. Müəllim şagirdlərin diqqətini dərsliyə yönəldir.

**Tədqiqat sualı:** Şəkildə gördüyünüz əşyaların adlar hansı səslə başlayır?

**Tədqiqatın aparılması.** Dərslikdəki əşya adlarının (parta, palto, papaq, pianino, poçtalyon) [p] səsi ilə başladığı şagirdlərə izah olunur.

Müəllim böyük “P”, kiçik “p” hərflərinin çap formasını, yazı formasını uşaqlara göstərir.

Oxu: “Oxuyaq” bölməsindəki hecalar və səhifə 39-da 3-cü, səhifə 40-da 5, 6, 7-ci tapşırıqdakı sözlər şagirdlər tərəfindən oxunur. Hecaların və sözlərin yadda qalması üçün oxuduqdan sonra səsli tələffüz edilir.

LAYİHƏ

Şagirdləri səhifə 39, 40, 41-də olan yazı nümunələrini dəftərlərinə yazdırırlar.

**Tətbiqetmə.** *Tapşırıq: N 1, (səh.38); 2, 3, 4 (səh. 39); 5, 6, 7 (səh. 40); 8 (səh. 41); "Pişik balaları" şeri (səh. 41).*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## MÖVZU: [Ş] səsi və "Ş" hərfi

**Təlim məqsədləri:**

- Şagirdlər [Ş] səsi və "Ş" hərfini tanıyırlar.
- "Ş" hərfinin sözlərdə yerini müəyyən edirlər.
- Heca və sözləri oxuyurlar.
- Böyük "Ş" və kiçik "ş" hərfini yazırlar.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Kollektiv iş, fərdi iş | Diskussiya və müşahidə | Nitq inkişafı, həyat bilgisi, riyaziyyat | Dərslik, şəkillər, maqnitofon |

**Motivasiya.** – Uşaqlar, Novruz bayramında bişirilən hansı şirniyyatları tanıyırsınız? (şəkərbura, paxlava, qoğal)

– Şəkərbura sözündə ilk səs hansıdır? ([ş] səsi)

– Biz bu gün [ş] səsi və "ş" hərfini keçəcəyik. Müəllim şagirdlərin diqqətini dərsliyə yönəldir.

**Tədqiqat sualı:** Şəkildə gördüyünüz əşyaların adı hansı səslə başlayır?

**Tədqiqatın aparılması.** Dərslikdəki əşya şəkillərinin (şalvar, şar, şəkərbura, şəlalə) adlarının [ş] səsi ilə başladığı müəyyən olunur.

Müəllim hər uşağa fərdi yanaşaraq "ş" hərfinin çap və yazı formalarını göstərir.

M: – Bunlar böyük "Ş", kiçik "ş" hərflərinin bunlar isə çap forması, yazı formasıdır.

Oxu: "Oxuyaq" bölməsindəki hecalar və səhifə 43-də 3-cü, səhifə 44-də 5, 7-ci, səhifə 45-də 9-cu tapşırıqdakı sözlər şagirdlər tərəfindən oxunur. Hecaların və sözlərin yadda qalması üçün oxuduqdan sonra səsli tələffüz edilir.

LAYİHƏ

Müəllim səhifə 43, 44, 45-də olan yazı nümunələrini şagirdlərin dəftərlərinə yazdırır.

**Tətbiqetmə.** *Tapşırıq: N 1 (səh.42); 5, 6, 7(səh. 44) 8, 9(səh. 45)*

Səhifə 43-də tapşırıq, səhifə 44-də tapşırıq 6-da verilən tapmacalar müəllim tərəfindən səsləndirilir və onun köməyi ilə şagirdlər tapmacanın açmasını tapırlar.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## MÖVZU: [E] səsi və "e" hərfi

**Təlim məqsədləri:**

- Şagirdlərin [E] səsi və "E" hərfini tanıyırlar.
- "E'' hərfinin sözlərdə yerini müəyyən edirlər.
- Heca və sözləri oxuyurlar.
- Böyük "E" və kiçik "e"hərfini yazırlar.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Kollektiv iş, fərdi iş | Diskussiya və müşahidə | Nitq inkişafı, həyat bilgisi, riyaziyyat | Dərslik, şəkillər, maqnitofon |

**Motivasiya.** Müəllim şagirdlərin diqqətini mövzuya fikrini dərsə yönəltmək məqsədi ilə üzərində ev şəkli olan kartı göstərərək sual verir:

– Uşaqlar, şəkildə gördüyünüz nədir? (ev).

– Bəs "ev" hansı səslə başlayır? (e səsi ilə)

– Biz bu gün [e] səsi və "e" hərfini keçəcəyik. Müəllim şagirdlərin diqqətini dərsliyə yönəldir.

Müəllim şagirdlərin diqqətini dərslikdəki şəkillərə yönəldir.

**Tədqiqat sualı:** Şəkildə gördüyünüz əşyaların adı hansı səslə başlayır?

**Tədqiqatın aparılması.** Dərslikdəki əşya şəkillərinin (eynək, ev, eşşək,) adlarının [e] səsi ilə başlandığı müəyyən olunur.

LAYİHƏ

Müəllim hər uşağa fərdi yanaşaraq, “e” hərfinin çap və yazı formasını göstərir.

M: – Bunlar böyük “E”, kiçik “e” hərflərinin çap forması, bunları isə “E”, kiçik “e”nin yazı formasıdır.

Oxu: “Oxuyaq” bölməsindəki hecalar və səhifə 47-də 3-cü, səhifə 48-də 5, 7-ci, səhifə 49-da 9-cu tapşırıqdakı sözlər şagirdlər tərəfindən oxunur. Hecaların vəsözlərin yadda qalması üçün oxuduqdan sonra səsli tələffüz edilir.

Müəllim səhifə 47, 48, 49-da olan yazı nümunələrini şagirdlərin dəftərlərinə yazdırır.

**Tətbiqetmə.** *Tapşırıq: N 1 (səh. 46); 2, 3 (səh. 47); 5, 7 (səh. 48); 8, 9(səh. 49).*

Səhifə 47, tapşırıq 4-də verilən tapmaca müəllim tərəfindən səsləndirilir və onun müəllimin köməyi ilə şagirdlər tapmacanın açmasını tapırlar.

Səhifə 48, tapşırıq 6-da verilən şeir əvvəl müəllim tərəfindən səsləndirilir, daha sonra isə şagirdlərə əzbərlətdirilir.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## MÖVZU: [V] səsi və “V” hərfi

**Təlim məqsədləri:**

- Şagirdlər [V] səsi və “V” hərfini tanıyırlar.
- “V” hərfinin sözlərdə yerini müəyyən edirlər.
- Səsləri birləşdirərək hecaları oxuyurlar.
- Heca və sözləri oxuyurlar.
- Böyük “V” və kiçik “v” hərfini yazırlar.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Kollektiv iş, fərdi iş | Diskussiya və müşahidə | Nitq inkişafı, həyat bilgisi, riyaziyyat | Dərslik, şəkillər, maqnitofon |

**Motivasiya.** Müəllim şagirdlərin diqqətni mövzuya yönəltmək məqsədi ilə onlara üzərində idman növlərinin olan təsviri kartlarını göstərərək sual verir:

LAYİHƏ

– Uşaqlar, şəkildə gördüyünüz idman növləri hansılardır? (futbol, basketbol, voleybol).

– Bəs voleybol sözü hansı səslə başlayır?(v səsi ilə)

Müəllim şagirdlərin diqqətini dərslikdəki şəkillərə yönəldir.

**Tədqiqat sualı:** Şəkildə gördüyünüz əşyaların adlar hansı səslə başlayır?

**Tədqiqatın aparılması.** Dərslikdəki əşya şəkillərinin adlarının tərkibində "v" səsinin olduğu müəyyən edilir (vedrə, oval, qaval, dəvə, gavalı, tava). Hərfin yazı və çap forması lövhə dəvə dərslikdə şagirdlərə göstərilir.

M: – Bunlar böyük "V", kiçik "v" hərflərinin bunlar isə yazı formasıdır. Böyük "V", kiçik "v" nın yazı forması.

Oxu: "Oxuyaq" bölməsindəki hecalar və səhifə 53-də 3-cü, səhifə 54-də 5-ci, səhifə 55-də 8-ci tapşırıqdakı sözlər şagirdlər tərəfindən oxunur. Hecaların və sözlərin yadda qalması üçün oxuduqdan sonra səsli tələffüz edilir.

Səhifə 53, tapşırıq 4-də M. Araza məxsus müdrik deyim müəllim tərəfindən səsləndirilir.

Səhifə 54, tapşırıq 6-da verilən "Vətənim" şeri əvvəl müəllim tərəfindən səsləndirilir, daha sonra şagirdlərə əzbərlətdirilir.

Müəllim səhifə 53, 54, 55-dəki yazı nümunələrini şagirdlərin dəftərlərinə yazdırır.

**Tətbiqetmə.** *Tapşırıq: N 1 (səh. 52); 2, 3, 4 (səh. 53); 5, 6, 7 (səh. 54), 7, 8 (səh. 55).*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## MÖVZU: [Z] səsi və "Z" hərfi

**Təlim məqsədləri:**

- Şagirdlər [z] səsi və "z" hərfini tanıyırlar.
- "Z" hərfinin sözlərdə yerini müəyyən edirlər.
- Heca və sözləri oxuyurlar.
- Səsləri birləşdirir və oxuyurlar.
- Böyük "Z" və kiçik "z"hərfini yazırlar.

LAYİHƏ

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Kollektiv iş, fərdi iş | Diskussiya və müşahidə | Nitq inkişafı, həyat bilgisi, riyaziyyat | Dərslik, şəkillər, maqnitofon |

**Motivasiya.** Müəllim şagirdlərin diqqətin dərsə yönəltmək məqsədi ilə üzərində vəhşi heyan olan şəkilləri kartları şagirdlərə göstərir.

– Uşaqlar, şəkildə hansı heyvanlar təsvir olunur? (ayı, meymun, canavar, pələng, qartal, zürafə).

– Bəs vəhşi heyvanlar içərisində ən uzun boylu heyvan hansıdır?(zürafə)

– "Zürafə" sözündə ilk hansı səsi eşidirsiniz? ([z]səsini)

Müəllim şagirdlərin diqqətini dərslikdəki şəkillərə yönəldir.

**Tədqiqat sualı:** Şəkildə gördüyünüz əşyaların adı hansı səslə başlayır?

**Tədqiqatın aparılması.** Dərslikdəki əşya şəkillərinin adlarının (zoğal, zeytun, zəncir, zürafə) ilk səsinin "[z]" səsi olduğu müəyyən edilir hərfin yazı və çap forması lövhədə və dərslikdə şagirdlərə göstərilir.

M: – Bunlar böyük "Z", kiçik "z" hərflərinin bunlar isə yazı formasıdır. Böyük "Z", kiçik "z" nın yazı forması.

Oxu: "Oxuyaq" bölməsindəki hecalar və səhifə 57-də 3-cü, səhifə 58-də 5, 7-ci, səhifə 59-da 9-cu tapşırıqdakı mətn şagirdlər tərəfindən oxunur. Mətndə diqqət Zəka, zavod sözlərindəki [z] səsinə yönəldilir. Hecaların və sözlərin yadda qalması üçün oxuduqdan sonra səsli tələffüz edilir.

Səhifə 58, tapşırıq 6-dakı şeir müəllim tərəfindən səsləndirilir. Şeirdə diqqət (zeytun, Zəki) sözlərindəki [z] səsinə yönəldilir.

Müəllim səhifə 57, 58, 59-dakı yazı nümunələrini şagirdlərin dəftərlərinə yazdırır.

**Tətbiqetmə.** *Tapşırıq N 1 (səh. 56); 2, 3, 4 (səh. 57); 5, 6,7 (səh. 58) ; 8, 9, 10 (səh. 59).*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

LAYİHƏ

**MÖVZU: [Ü] səsi və "Ü" hərfi**

**Təlim məqsədləri:**
- Şagirdlər [Ü] səsi və "Ü" hərfini tanıyırlar.
- Sözlərdə "Ü" hərfinin yerini müəyyən edirlər.
- Böyük "Ü"və kiçik "ü" hərfini yazırlar.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Kollektiv iş, fərdi iş | Diskussiya və müşahidə | Nitq inkişafı, həyat bilgisi, riyaziyyat | Dərslik, şəkillər, maqnitofon |

**Motivasiya.** Müəllim şagirdlərin diqqətini dərsə yönəltmək məqsədi ilə üzərində meyvə şəkilləri olan kartları göstərərək sual verir:

– Uşaqlar, şəkildə gördüyünüz meyvələrin adlarını deyək. (alma, armud, nar, heyva, üzüm)

Müəllim şagirdlərin diqqətini "üzüm" sözündəki [ü] səsinə yönəldir:

– Uşaqlar, "üzüm" sözündə ilk hansı səsi eşitdiniz? [ü]

**Tədqiqat sualı:** Şəkildə gördüyünüz əşyaların adları hansı səslə başlayır?

**Tədqiqatın aparılması.** Dərslikdəki əşya adlarının (üzük, üçbucaq, üzüm, ürək) [ü] səsi ilə başlandığı şagirdlərə izah olunur.

M: –Bunlar böyük "Ü", kiçik "ü" hərflərinin çap forması, bunlar isə yazı formasıdır.

Oxu: "Oxuyaq" bölməsindəki hecalar və səhifə 61-də 3, 4-cü, səhifə 62-də 5, 6-cı, səhifə 63-də 7, 8, 9-cu tapşırıqlar şagirdlər tərəfindən oxunur. Səhifə 63, tapşırıq 8-də diqqət Ülkər, ütü sözlərindəki ilk səsin [ü] səsi olduğuna yönəldilir. Səhifə 62, tapşırıq 6-dakı Y. Kərimovun məxsus "Üzüm" şeiri müəllim tərəfindən səsləndirilir və şagirdlərə əzbərlətdirilir.

Müəllim səhifə-61, 62, 63-dəki yazı nümunələrini şagirdlərin dəftərlərinə yazdırır.

**Tətbiqetmə.** *Tapşırıq N 1 (səh. 60); 2, 3, 4 (səh. 61); 5, 6 (səh. 62); 7, 8, 9 (səh. 63).*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

LAYİHƏ

**MÖVZU: [Ö] səsi və"Ö" hərfi**

**Təlim məqsədləri:**

- Şagirdlər [Ö] səsi və "ö" hərfini tanıyırlar.
- Sözlərdə [Ö] səsinin yerini müəyyən edirlər.
- Böyük "Ö" və kiçik "ö" hərfini müəyyən olunmuş xətt boyunca düzgün yazırlar.
- "Ö" hərfi olan heca və sözləri oxuyurlar.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Kollektiv iş, fərdi iş | Diskussiya və müşahidə | Nitq inkişafı, həyat bilgisi, riyaziyyat | Dərslik, şəkillər, maqnitofon |

**Motivasiya.** Müəllim şagirdlərin diqqətini mövzuya yönəltmək məqsədi ilə göldə üzən ördəklərin şəklini göstərərək şagirdlərə sual verir

– Uşaqlar, şəkildə hansı ev quşları təsvir olunub? (ördək)

– "Ördək" sözündə ilk hansı səsi eşidirsiniz? ([ö] səsini)

**Tədqiqat sualı:** – Şəkillərin adları hansı hərflə başlayır?

**Tədqiqatın aparılması.** Dərslikdəki əşya (öküz, önlük, ördək) adlarının [ö] səsi ilə başladığı şagirdlərə izah olunur. Həmin səhifədə "ö" hərfinin çap və yazı formalar, şagirdlərə göstərilir.

Müəllim şagirdlərə fərdi yanaşaraq, "Oxuyaq" bölməsini bitirdikdən sonra sözlərdə hərf və səslərin yerini müəyyən etmək üçün tapşırıqlara keçir.

Oxu: "Oxuyaq" bölməsindəki hecalar və səhifə 67-də 3-cü, səhifə 68-də 5, 6-cı, səhifə 69-da 10-cu tapşırıqlar şagirdlərə tərəfindən oxunur. Səhifə 67, tapşırıq 4-də nitq qabiliyyəti və təfəkkürün inkişafı üçün şagirdlərdən verilmiş sözlərə cümlə qurulması tapşırılır. Səhifə 67, tapşırıq 5-də olan tapmaca müəllim tərəfindən səsləndirilir və onun köməyi ilə tapmacanın açması tapılır. Səhifə 68, tapşırıq 6-da şagirdlərin diqqət Rövşən, ördək sözlərinin tərkibindəolan [ö] səsinə yönəldilir. Səhifə 69, tapşırıq 9-da şagirdlərin nitqini inkişaf etdirmək məqsədi ilə verilmiş sözlərdən istifadə edərək, cümlə qurulması tələb edilir.

Müəllim səhifə 67, 68, 69-da verilmiş yazı nümunələrini şagirdlərin dəftərlərinə yazdırır.

LAYİHƏ

**Tətbiqetmə.** *Tapşırıq: N 1 (səh. 66); 2, 3, 4, 5 (səh. 67); 6, 7 (səh. 62); 8, 9, 10 (səh. 69).*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## MÖVZU: [G] səsi və "G" hərfi

**Təlim məqsədləri:**

- Şagirdlər [G] səsi və "G" hərfini tanıyırlar.
- Sözlərdə [G] səsinin yerini müəyyən edirlər.
- "G" hərfi ilə verilən heca və sözləri oxuyurlar.
- Böyük "G" və kiçik "g" hərfini müəyyən olunmuş xətt boyunca yazırlar.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Kollektiv iş, fərdi iş | Diskussiya və müşahidə | Nitq inkişafı, həyat bilgisi, riyaziyyat | Dərslik, şəkillər, maqnitofon |

**Motivasiya.** Müəllim şagirdlərin diqqətini mövzuya yönləndirmək məqsədi ilə üzərində nəqliyyat vasitələrinin şəkli olan kartları lövhəyə asır və uşaqlara sual verir:

– Uşaqlar, lövhədə hansı nəqliyyat vasitələrini görürsünüz? (maşın, metro, avtobus, gəmi)

– "Gəmi" sözündə ilk hansı səsi eşidirsiniz?([g] səsini)

Bu gün biz [G] səsi və "G" hərfi ilə tanış olacağıq.

**Tədqiqat sualı:** Şəkildəki əşyaların adları hansı səslə başlayır?

**Tədqiqatın aparılması.** Dərslikdəki şəkillərin (gəmi, göyərçin, gerb, günəş) adlarının [g] səsi ilə başlandığı şagirdlərə izah olunur. Hər bir şagirdə fərdi yanaşaraq, "G" hərfinin çap və əl yazısı formaları göstərilir.

Müəllim şagirdlərə fərdi yanaşaraq, "Oxuyaq" bölməsini bitirdikdən sonra hərf və səslərin yerini sözlərdə müəyyən etmək üçün tapşırıqlara keçir.

Oxu: "Oxuyaq" bölməsindəki hecalar və səhifə 71-də 3, 5-ci, səhifə 72-də 5, 6-cı, səhifə 73-da 9-cu tapşırıqlar şagirdlər tərəfindən oxunur. Səhifə 71, tapşırıq 4-də

LAYİHƏ

şagirdlərin diqqətinin möhkəmləndirilməsi məqsədi ilə buraxılmış “g” hərflərini tamamlayaraq, sözlərin dəftərdə yazılması tələb olunur. Səhifə 71 tapşırıq 5-də olan tapmaca şagirdlər tərəfindən hecalarla oxunur və müəllimin köməyi ilə tapmacanın açması tapılır. Səhifə 72, tapşırıq 6-da diqqət Günay, gəmi, gözəl sözlərinin tərkibində olan [g] səsinə yönəldilir. Səhifə 73, tapşırıq 9-da şagirdlərin nitq inkişafını və əzbərləmə qabiliyyətini inkişaf etdirmək məqsədilə “Günəş” şeiri əvvəl müəllim tərəfindən səsləndirilir, daha sonra isə şagirdlər tərəfindən hecalanaraq oxunur və əzbərlənir.

Müəllim səhifə 71, 72, 73-də olan yazı nümunələrini şagirdlərin dəftərlərinə yazdırır.

**Tətbiqetmə.** *Tapşırıq: N 1 (səh. 70); 2, 3, 4, 5 (səh. 71); 6, 7(səh. 72); 8, 9, 10 (səh. 73).*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## MÖVZU: [Q] səsi və “Q” hərfi

**Təlim məqsədləri:**

- Şagirdlər [Q] səsi və “Q” hərfini tanıyırlar.
- “Q” hərfinin sözlərdə yerini müəyyən edirlər.
- Heca və sözləri oxuyurlar.
- Böyük “Q” və kiçik “q”hərfini yazırlar.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Kollektiv iş, fərdi iş | Diskussiya və müşahidə | Nitq inkişafı, həyat bilgisi, riyaziyyat | Dərslik, şəkillər, maqnitofon |

**Motivasiya.** Müəllim şagirdlərin diqqətini mövzuya yönləndirmək məqsədi ilə lövhəyə üzərində duyğu orqanlarının şəkli olan kartlar asır və soruşur:

– Uşaqlar, lövhədə gördüyünüz duyğu orqanları hansılardır? (göz, dil, əl, burun, qulaq)

– “Qulaq” sözündə ilk hansı səsi eşitdiniz? ([q])

Bu gün biz [Q] səsi və “Q” hərfi ilə tanış olacağıq.

LAYİHƏ

**Tədqiqat sualı:** Şəkillərdəki əşyaların, meyvələrin adları hansı səslə başlayır?

**Tədqiqatın aparılması.** Dərslikdəki şəkillərin (qoyun, qapı, qarpız, qoz) adlarının [q] səsi ilə başlandığı şagirdlərə izah olunur. Hər bir şagirdə fərdi yanaşaraq, “Q” hərfinin çap və yazı formalar göstərilir.

Müəllim şagirdlərə fərdi yanaşaraq “Oxuyaq” bölməsini bitirdikdən sonra hərf və səslərin yerini sözlərdə müəyyən etmək üçün tapşırıqlara keçir.

“Oxuyaq” bölməsindəki hecalar və səhifə 75-də 3-cü, səhifə 76-da 5, 6-cı, səhifə 77-da 9-cu tapşırıqlar şagirdlər tərəfindən oxunur. Səhifə 75, tapşırıq 4-də şagirdlərin nitq inkişafını zənginləşdirmək məqsədi ilə verilmiş şəkillər haqqında məlumat verilir. Səhifə 75 tapşırıq 5-də olan tapmaca müəllim tərəfindən səsləndirilir və müəllimin köməyilə tapmacanın açması tapılır. Səhifə 76, tapşırıq 6-da diqqət Qasım, quş, qorumaq, uşaq sözlərinin tərkibində olan [q] səsinə yönəldilir. Səhifə 77, tapşırıq 9-da şagirdlərin nitq inkişafını və əzbərləmə qabiliyyətini gücləndirmək məqsədi ilə “Qədir”şeri əvvəl müəllim tərəfindən səsləndirilir, sonra şagirdlər tərəfindən hecalanaraq oxunur və əzbərlənir.

Müəllim səhifə 75, 76, 77-də verilən yazı nümunələrini şagirdlərin dəftərlərinə yazdırır.

**Tətbiqetmə:** *Tapşırıq N 1 (səh. 74); 2, 3, 4, 5 (səh. 75) 6, 7 (səh. 76); 8, 9, 10 (səh. 77).*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## MÖVZU: [X] səsi və “X” hərfi

**Təlim məqsədləri:**

- Şagirdlər [X] səsi və “X” hərfini tanıyırlar.
- ‘‘X’’hərfinin sözlərdə yerini müəyyən edirlər.
- Heca və sözləri oxuyurlar.
- Böyük “X” və kiçik “x” hərfini yazırlar.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Kollektiv iş, fərdi iş | Diskussiya və müşahidə | Nitq inkişafı, həyat bilgisi, riyaziyyat | Dərslik, şəkillər, maqnitofon |

LAYİHƏ

**Motivasiya.** Müəllim şagirdlərin diqqətini mövzuya yönləndirmək məqsədi ilə "Xoruz" şerini mahnı şəklində səsləndirir:

***Ay pipiyi qan xoruz,***

***Gözləri mərcan xoruz!***

***Quqqulii quuuuuuu!!!***

***Quqqulii quuuuuuu!!!***

– Uşaqlar, mahnıda hansı ev quşundan bəhs edilir? (xoruz)

– Xoruz sözündə ilk olaraq hansı səsi eşitdiniz?([x] səsini)

**Tədqiqat sualı:** Şəkildəki əşyaların adları hansı səslə başlayır? ([x] səsi ilə)

**Tədqiqatın aparılması.** Dərslikdəki şəkillərin (xiyar, xalça, xizək, xalat) adlarının [x] səsi ilə başlandığı şagirdlərə izah olunur. Hər bir şagirdə fərdi yanaşaraq, "X" hərfinin çap və yazı formaları göstərilir.

Müəllim şagirdlərə fərdi yanaşaraq, "Oxuyaq" bölməsini bitirdikdən sonra hərf və səslərin yerini sözlərdə müəyyən etmək üçün tapşırıqlara keçir.

Oxu: "Oxuyaq" bölməsindəki hecalar və səhifə 81-də 3-cü, səhifə 82-də 5, 7-ci tapşırıqlar şagirdlər tərəfindən oxunur. Səhifə 81, tapşırıq 3-də şagirdlərin nitqini inkişaf etdirmək məqsədi ilə verilmiş sözlərlə cümlə qurulur. Səhifə 81, tapşırıq 5-də verilən tapmaca şagird tərəfindən hecalanaraq oxunur və müəllimin köməyi ilə tapmacanın açması tapılır. Səhifə 82, tapşırıq 6-da şagirdlərin nitq inkişafını və əzbərləmə qabiliyyətini inkişaf etdirmək məqsədi ilə "Xəzər"şeri əvvəl müəllim tərəfindən səsləndirilir, sonra şagirdlər tərəfindən hecalanaraq oxunur və əzbərlənir. Səhifə 83, tapşırıq 9-da diqqət Xanım, xala, xalı, naxış, toxumaq, Xatun sözlərinin tərkibində olan [x] səsinə yönəldilir.

Müəllim 81, 82, 83-cü səhifələrdəki yazı nümunələrini şagirdlərin dəftərlərinə yazdırır.

**Tətbiqetmə:** *Tapşırıq: N 1 (səh. 80); 2, 3, 4, 5 (səh. 81); 6, 7 (səh. 82); 8, 9 səh. 83).*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

LAYİHƏ

**MÖVZU: [Ğ] səsi və "ğ" hərfi**

**Təlim məqsədləri:**

- [Ğ] səsi və "Ğ" hərfini tanıyırlar.
- "Ğ'' hərfinin sözlərdə yerini müəyyən edirlər.
- Heca və sözləri oxuyurlar.
- Böyük "Ğ" və kiçik "ğ" hərfini yazırlar.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Kollektiv iş, fərdi iş | Diskussiya və müşahidə | Nitq inkişafı, həyat bilgisi, riyaziyyat | Dərslik, şəkillər, maqnitofon |

**Tədqiqat sualı:** Bağ, dağ, sağ sözlərində sonuncu eşitdiyiniz səs hansıdır?

**Tədqiqatın aparılması.** Dərslikdəki şəkillərin (qurbağa, qarğıdalı, nağara, qoğal) adlarının tərkibində [ğ] səsinin olduğu şagirdlərə izah olunur. Hər bir şagirdə fərdi yanaşaraq, "Ğ" hərfinin çap və yazı formaları göstərilir.

Müəllim şagirdlərə fərdi yanaşaraq, "Oxuyaq" bölməsini bitirdikdən sonra sözlərdə hərf və səslərin yerini müəyyən etmək üçün tapşırıqlara keçir.

– "Oxuyaq" bölməsindəki hecalar və səhifə 85-də 3, 5-ci, səhifə 86-də 6, 7-ci tapşırıqlar şagirdlər tərəfindən oxunur. Səhifə 85, tapşırıq 4-də olan tapmaca şagird tərəfindən hecalanaraq oxunur və müəllimin köməyi ilə tapmacanın açması tapılır. Səhifə 86, tapşırıq 6-da diqqət Nağı, Toğrul, zoğal sözlərinin tərkibində olan [ğ] səsinə yönəldilir. Səhifə 87, tapşırıq 9-da şagirdlərin nitq inkişafını və əzbərləmə qabiliyyətini inkişaf etdirmək məqsədi ilə M.Seyidzadənin "Yağış" şeiri əvvəl müəllim tərəfindən səsləndirilir, sonra şagirdlər tərəfindən hecalanaraq oxunur və əzbərlənir. Səhifə 87, tapşırıq 10-da şagirdlərin nitq inkişafının zənginləşdirilməsi məqsədi ilə verilmiş sözlərlə cümlə qurulur

Müəllim səhifə 85, 86, 87-də olan yazı nümunələrini şagirdlərin dəftərlərinə yazdırır.

**Tətbiqetmə.** *Tapşırıq: N 1 (səh. 84); 2, 3, 4, 5 (səh. 85); 6, 7 (səh. 86); 8, 9, 10 (səh. 87).*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

LAYİHƏ

**MÖVZU: [C] səsi və "C" hərfi**

**Təlim məqsədləri:**

- Şagirdlər [C] səsi və "C" hərfini tanıyırlar.
- "C" hərfinin sözlərdə yerini müəyyən edirlər.
- Səsləri birləşdirərək hecaları oxuyurlar.
- Heca və sözləri oxuyurlar.
- Böyük "C" və kiçik "c" hərfini yazırlar.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Kollektiv iş, fərdi iş | Diskussiya və müşahidə | Nitq inkişafı, həyat bilgisi, riyaziyyat | Dərslik, şəkillər, maqnitofon |

**Motivasiya.** Müəllim şagirdlərin diqqətini dərsə yönəltmək məqsədi ilə "Cücələrim"mahnısını səsləndirir.

***Cib-cib, cib-cib, cücələrim.***
***Mənim qəşəng cücələrim,***
***Tükü ipək cücələrim.***
***Gözləyirəm tez gələsiz,***
***Göy çəməndə dincələsiz.***
***Ay mənim cücələrim!***
***Ay mənim cücələrim!***

– Uşaqlar, dinlədiyiniz musiqidə hansı ev heyvanlarından bəhs edilir? (cücələr).

– "Cücələr" sözündə ilk hansı səsi eşitdiniz? [C]

**Tədqiqat sualı:** – Kim "C" hərfi ilə başlayan söz deyər? (corab, ceyran)

**Tədqiqatın aparılması.** Dərslikdəki şəkillərin (cücə, qılınc, canavar, ceyran) adlarının tərkibində [c] səsinin olduğu şagirdlərə izah olunur. Hər bir şagirdə fərdi yanaşaraq, "C" hərfinin çap və yazı formalar göstərilir.

Müəllim şagirdlərə fərdi yanaşaraq "Oxuyaq" bölməsini bitirdikdən sonra hərf və səslərin yerini sözlərdə müəyyən etmək üçün tapşırıqlara keçir.

-Oxuyaq bölməsindəki hecalar və səhifə 89-da 3-cü, səhifə 90-da 5, 7-ci tapşırıqlar şagirdlər tərəfindən oxunur. Səhifə 89, tapşırıq 4-də şagirdlərin nitqin inkişaf etdirilməsi

LAYİHƏ

məqsədi ilə hecaları birləşdirərək, yaranan sözlərlə cümlə qurulur.Səhifə 90, tapşırıq 7-də verilən şəkillərin adlarını səsləndirib, onlarla cümlə qurmaq təklif olunur. Səhifə 90, tapşırıq 6-da diqqət cücə, acmaq, Cəmilə, cip-cip sözlərinin tərkibində olan [c] səsinə yönəldilir. Səhifə 91, tapşırıq 9-da şagirdlərin nitqini və əzbərləmə qabiliyyətini inkişaf etdirmək məqsədi ilə S.Vurğunun "Azərbaycan" şeri əvvəlcə müəllim tərəfindən səsləndirilir, sonra şagirdlər tərəfindən hecalanaraq oxunur və əzbərlənir.

Müəllim səhifə 89, 90, 91-də yazı nümunələrini şagirdlərin dəftərlərinə yazdırır.

**Tətbiqetmə.** *Tapşırıq N 1 (səh. 88); 2, 3, 4 (səh. 89); 5, 6, 7 (səh. 90); 8, 9, 10 (səh. 91).*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## MÖVZU: [Ç] səsi və "Ç" hərfi

**Təlim məqsədləri:**

- Şagirdlər [Ç] səsi və "Ç" hərfini tanıyırlar.
- "Ç" hərfinin sözlərdə yerini müəyyən edirlər.
- Heca və sözləri oxuyurlar.
- Səsləri birləşdirir və oxuyurlar.
- Böyük "Ç" və kiçik "ç" hərfini yazırlar.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Kollektiv iş, fərdi iş | Diskussiya və müşahidə | Nitq inkişafı, həyat bilgisi, riyaziyyat | Dərslik, şəkillər, maqnitofon |

**Motivasiya.** Müəllim şagirdlərin diqqətini mövzuya yönəltmək məqsədi ilə lövhəyə üzərində 4 fəslin təsviri olan kartlar asır.

– Uşaqlar, ən çox hansı fəsildə yağış yağır? (payızda)
– Yağış yağarkən biz nədən istifadə edirik? (çətirdən)
– "Çətir" sözündə ilk hansı səsi eşitdiniz? ([Ç] səsini)

**Tədqiqat sualı:** Şəkildəki sözlər hansı səslə başlayır? ([Ç] səsi ilə)

LAYİHƏ

**Tədqiqatın aparılması.** Dərslikdəki şəkillərin (çiyələk, çətir, çörək, çəngəl) ilk səsinin [ç] səsi olduğu şagirdlərə izah olunur. Hər bir şagirdə fərdi yanaşaraq, "Ç" hərfinin çap və yazı forması göstərilir.

Müəllim şagirdlərə fərdi yanaşaraq "Oxuyaq" bölməsini bitirdikdən sonra sözlərdə hərf və səslərin yerini sözlərdə müəyyən etmək üçün tapşırıqlara keçir.

Oxu: "Oxuyaq" bölməsindəki hecalar və səhifə 95-də 3-cü, səhifə 96-da 6-cı tapşırıqlar şagirdlər tərəfindən oxunur. Səhifə 95, tapşırıq 4-də şagirdlərin nitqini və əzbərləmə qabiliyyətini inkişaf etdirmək məqsədi ilə M. Rəhimin "Çiyələk" şeiri əvvəlcə müəllim tərəfindən səsləndirilir, sonra şagirdlər tərəfindən hecalanaraq oxunur və əzbərlənir. Səhifə 95, tapşırıq 5-də şagirdlərin lüğət ehtiyatının zənginləşdirilməsi məqsədi ilə "çay" sözünün iki fərqli mənada işləndiyi şagirdlərə izah olunur. Səhifə 96, tapşırıq 7-də lüğət ehtiyatının zənginləşdirilməsi məqsədilə peşə adları öyrədilir. Səhifə96 tapşırıq 8-də təfəkkürün inkişafı məqsədilə 2 söz arasında uyğunluq müəyyən edilir. Səhifə 97, tapşırıq 10-da diqqət çörək, Çimnaz sözlərinin tərkibində olan [ç] səsinə yönəldilir.

Müəllim səhifə 95, 96, 97-də olan yazı nümunələrini şagirdlərin dəftərlərinə yazdırır.

**Tətbiqetmə.** *Tapşırıq N (səh. 94); 2, 3, 4, 5 (səh. 95); 6, 7, 8 (səh. 96); 9, 10 (səh. 97).*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## MÖVZU: [H] səsi və "H" hərfi

**Təlim məqsədləri:**

- Şagirdlər [H] səsi və "H" hərfini tanıyırlar.
- ''H''hərfinin sözlərdə yerini müəyyən edirlər.
- Heca və sözləri oxuyurlar.
- Böyük "H" və kiçik "h"hərfini yazırlar.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Kollektiv iş, fərdi iş | Diskussiya və müşahidə | Nitq inkişafı, həyat bilgisi, riyaziyyat | Dərslik, şəkillər, maqnitofon |

**Motivasiya.** Müəllim şagirdlərin diqqətini mövzuya yönəltmək məqsədi ilə lövhəyə heyvan şəkilləri asır.



LAYİHƏ

– Uşaqlar, şəkildə gördüklərinizin adlarını deyin (it, pişik, qoyun, keçi, meymun, şir və s.)

– Bunları ümumi şəkildə necə adlandırmaq olar? (heyvanlar)

– "Heyvan" sözündə ilk səs hansıdır? ([H] səsi)

**Tədqiqat sualı:** Şəkildəki heyvanların adları hansı səslərlə başlayır?

**Tədqiqatın aparılması.** Dərslikdəki şəkillərin (hörümçək, hindtoyuğu, hədiyyə) ilk səsinin [h]səsi olduğu şagirdlərə izah olunur. Hər bir şagirdə fərdi yanaşaraq, "H" hərfinin çap və yazı forması göstərilir.

Müəllim şagirdlərə fərdi yanaşaraq, "Oxuyaq" bölməsini bitirdikdən sonra hərf və səslərin sözlərdə yerini müəyyən etmək üçün tapşırıqlara keçir.

Oxu: "Oxuyaq" bölməsindəki hecalar və səhifə 99-da 3-cü, səhifə 100-də 6-cı tapşırıqlar şagirdlər tərəfindən oxunur. Səhifə 99, tapşırıq 4-də şagirdlərin nitq inkişafını və əzbərləmə qabiliyyətini inkişaf etdirmək məqsədi ilə M. Rzaquluzadənin "Heyva" şeiri əvvəl müəllim tərəfindən səsləndirilir, sonra şagirdlər tərəfindən hecalanaraq oxunur və əzbərlənir. Səhifə 99, tapşırıq 5-də təfəkkür və diqqətin inkişafı məqsədilə hərfləri sıra ilə düzüb alınan sözləri tapırıq. Səhifə 100, tapşırıq 7-də diqqət Həsən, həkim, həb sözlərinin tərkibində olan [h] səsinə yönəldilir. Səhifə 101, tapşırıq 11-də şagirdlərin nitq və təfəkkürünü inkişaf etdirmək məqsədi ilə verilmiş alətlərin hansı peşəyə aid olması müəyyənləşdirilir.

Müəllim səhifə 99, 100, 101-dəki yazı nümunələrini şagirdlərin dəftərlərinə yazdırır.

**Tətbiqetmə.** *Tapşırıq N 1 (səh. 98); 2, 3, 4, 5 (səh. 99); 6, 7, 8 (səh. 100); 9, 10, 11 (səh.101).*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## MÖVZU: [F] səsi və "F" hərfi

**Təlim məqsədləri:**

- Şagirdlər [F] səsi və "F" hərfini tanıyırlar.
- Sözlərdə "F" hərfinin yerini müəyyən edirlər.
- Heca və sözləri oxuyurlar.
- Böyük "F" və kiçik "f"hərfini yazırlar.

LAYİHƏ

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Kollektiv iş, fərdi iş | Diskussiya və müşahidə | Nitq inkişafı, həyat bilgisi, riyaziyyat | Dərslik, şəkillər, maqnitofon |

**Motivasiya.** Müəllim şagirdlərin diqqətini mövzuya yönəltmək məqsədi ilə lövhəyə quru meyvələrin şəklini asır və onlarav müraciət edir:

– Uşaqlar, şəkildə hansı quru meyvələr təsvir olunub? (qoz, şabalıd, badam, fındıq)

– Fındıq sözündə ilk səs hansıdır? ([F])

**Tədqiqat sualı:** Şəkildəki adlar hansı səslə başlayır?

**Tədqiqatın aparılması.** Dərslikdəki şəkillərin (fil, fincan, fənər, fındıq) ilk səsinin [f] səsi olduğu şagirdlərə izah olunur. Hər bir şagirdə fərdi yanaşaraq,“F” hərfinin çap və yazı formaları göstərilir.

Müəllim şagirdlərə fərdi yanaşaraq, “Oxuyaq” bölməsini bitirdikdən sonra sözlərdə hərf və səslərin yerini müəyyən etmək üçün tapşırıqlara keçir.

Oxu: “Oxuyaq” bölməsindəki hecalar və səhifə 103-də 3-cü, səhifə 104-də 5-ci tapşırıqlar şagirdlər tərəfindən oxunur. Səhifə 103, tapşırıq 4-də şagirdlərin nitqini və əzbərləmə qabiliyyətini inkişaf etdirmək məqsədi ilə Z. Xəlilin “Fil” şeiri əvvəl müəllim tərəfindən səsləndirilir, sonra şagirdlər tərəfindən hecalanaraq oxunur və əzbərlənir. Səhifə 104, tapşırıq 6-da diqqət futbol, Fuad, Fərid, Fariz, Fərhad sözlərinin tərkibində olan [f] səsinə yönəldilir. Səhifə 104, tapşırıq 7-də şagirdlərin təfəkkürünü inkişaf etdirmək məqsədilə topla oynanılan oyunların adları deyilir. Səhifə 105, tapşırıq 9-da təfəkkürün inkişafı məqsədi ilə uyğun gələn sözləri müəyyən edirik. Səhifə 105, tapşırıq 10-da olan tapmaca şagird tərəfindən hecalanaraq oxunur və müəllimin köməyi ilə tapmacanın açması tapılır.

Müəllim 103, 104,105-ci səhifələrdəki yazı nümunələrini şagirdlərin dəftərlərinə yazdırır.

**Tətbiqetmə:** *Tapşırıq N 1 (səh. 102); 2, 3, 4 (səh. 103); 5, 6, 7, 8 (səh. 104); 8, 9, 10 (səh. 105)*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

LAYİHƏ

**MÖVZU: [J] səsi və "J" hərfi**

**Təlim məqsədləri:**

- Şagirdlər [J] səsi və "J" hərfini tanıyırlar.
- Sözlərdə "J" hərfinin yerini müəyyən edirlər.
- Heca və sözləri oxuyurlar.
- Böyük "J" və kiçik "j"hərfini yazırlar.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Kollektiv iş, fərdi iş | Diskussiya və müşahidə | Nitq inkişafı, həyat bilgisi, riyaziyyat | Dərslik, şəkillər, maqnitofon |

**Motivasiya.** Müəllim şagirdlərin diqqətini mövzuya yönəltmək məqsədi ilə onlara geyim əşyalarının şəkli olan kartları göstərərək deyir:

– Şəkildə hansı geyim əşyaları təsvir olunub? (şalvar, köynək, corab, jaket və s.)
– "Jaket" sözündə ilk olaraq hansı səsi eşidirsiniz? ([J] səsini)

**Tədqiqat sualı:** Şəkildəki əşya adları hansı səslə başlayır?

**Tədqiqatın aparılması.** Dərslikdəki şəkillərin (jaket, jurnal, jilet) ilk səsinin [j] səsi olduğu şagirdlərə izah olunur. Hər bir şagirdə fərdi yanaşaraq,"J" hərfinin çap və yazı forması göstərilir.

Müəllim şagirdlərə fərdi yanaşaraq, "Oxuyaq" bölməsini bitirdikdən sonra sözlərdə hərf və səslərin yerini müəyyən etmək üçün tapşırıqlara keçir.

Oxu: "Oxuyaq" bölməsindəki hecalar və səhifə 107-də 3-cü, səhifə 108-də 5-ci tapşırıqlar şagirdlər tərəfindən oxunur. Səhifə 107, tapşırıq 4-də şagirdlərin nitqini və əzbərləmə qabiliyyətini inkişaf etdirmək məqsədi ilə "Jalə" şeiri əvvəlcə müəllim tərəfindən səsləndirilir, sonra şagirdlər tərəfindən hecalanaraq oxunur və əzbərlənir. Səhifə 108 tapşırıq 6-da diqqət Jalə, jaket sözlərinin tərkibində olan [j] səsinə yönəldilir. Səhifə 108, tapşırıq 7-də şagirdlərin diqqət və təfəkkürünü inkişaf etdirmək məqsədi ilə uyğun gələn hecaları birləşdirib sözlər yaradırlar. Səhifə 109, tapşırıq 10-da təfəkkürü inkişaf etdirmək məqsədi ilə cümlələri şəkillər vasitəsilə tamamlayırlar.

Müəllim səhifə 107, 108, 109-dakı yazı nümunələrini şagirdlərin dəftərlərinə yazdırır.

**Tətbiqetmə.** *Tapşırıq N 1 (səh. 106); 2, 3, 4 (səh. 107); 5, 6, 7 (səh. 108); 8, 9 (səh. 109).*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

LAYİHƏ

**MÖVZU: Dostluq.**

**Təlim məqsədləri:**

- Şagird dostluq anlayışını dərk edir, insan adlarının böyük hərflə yazıldığını bilir.
- Oxu bacarıqları inkişaf etdirilir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Kollektiv iş, fərdi iş | Diskussiya və müşahidə | Nitq inkişafı, həyat bilgisi, riyaziyyat | Dərslik,nağıl qəhrəmanlarının şəkilləri |

**Motivasiya.** Müəllim uşaqların fikrini mövzuya yönəltmək məqsədi ilə şagirdlərə sual verir:

– Uşaqlar, dost sözü sizin üçün nəyi ifadə edir?

– Sizin dostunuz varmı?

**Tədqiqat sualı:** "Dostluq" şəklində gördükləriniz haqqında nə deyə bilərsiniz?

**Tədqiqatın aparılması.** Müəllim şagirdlərin diqqətini "Dostluq" mətninə yönəldir. Hər bir şagirdə fərdi yanaşaraq, mətni şagirdlərə oxutdurur, sonra şəklə əsasən suallar verir:

1. Dostlar harada oynayırlar? (həyətdə)
2. Fuad Elvinə necə kömək edir? (Ona yerdən qalxmağa kömək edir).
3. Sənin dostun kimdir? (müxtəlif cavablar səsləndirilir).

"Dostluq" mətni şagirdlər tərəfindən hecalanaraq oxunur və onlar mətn haqqında düşüncələrini bölüşürlər.

Müəllim səhifə 7-də verilən yazı nümunələrini şagirdlərin dəftərlərinə yazdırır.

**Tətbiqetmə.** *Tapşırıq N 1, 2 (səh.6); 3, 4 (səh.7)*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

Qeyd: **İnsan adları böyük hərflə yazılır.**

LAYİHƏ

**MÖVZU: Sevimli kitabım**

**Təlim məqsədləri:**

- Şagirdlərə kitablara maraq hissi aşılanır.
- Şagirdlərin həyatında dərsliklərin rolu mahiyyəti onlara çatdırılır.
- Oxu bacarıqları inkişaf etdirilir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Kollektiv iş, fərdi iş | Diskussiya və müşahidə | Nitq inkişafı, həyat bilgisi, riyaziyyat | Dərslik, dərslik şəkilləri |

**Motivasiya.** Müəllim uşaqların fikrini mövzuya yönəltmək məqsədi ilə onlara sual verir:

– Uşaqlar, sizin ən çox sevdiyiniz dərslik hansıdır?

**Tədqiqat sualı:** Hansı dərslikləri tanıyırsınız?

**Tədqiqatın aparılması.** Müəllim şagirdlərin diqqətini "Sevimli kitabım" mövzusuna yönəldir. Hər bir şagirdə fərdi yanaşaraq, mətni şagirdlərə oxutdurur, sonra şəklə əsasən suallar verir:

1. Lalənin sevimli kitabı hansı idi? "Azərbaycan dili" dərsliyi

2. Lalə nə üçün o kitabı sevir? (hərfləri öyrəndiyi üçün)+Sənin sevimli kitabın hansıdır? (müxtəlif cavablar səsləndirilir)

"Sevimli kitabım" mətni şagirdlər tərəfindən hecalanaraq oxunur və onlar mətn haqqında düşüncələrini bölüşürlər.

Müəllim səhifə 9-da olan tapşırığı şagirdlərin dəftərlərinə yazdırır.

**Tətbiqetmə.** *Tapşırıq N 1, 2 (səh.8); 3,4,5 (səh.9).*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

LAYİHƏ

**MÖVZU: Arılar və ayı**

**Təlim məqsədi:**

- Oxu bacarıqları inkişaf etdirilir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Kollektiv iş, fərdi iş | Diskussiya və müşahidə | Nitq inkişafı, həyat bilgisi, riyaziyyat | Dərslik, mətnə aid şəkil nümunələri |

**Motivasiya.** Müəllim şagirdlərin fikrini mövzuya yönəltmək məqsədi ilə üzərində ayı şəkli olan kartı lövhədən asır:

– Uşaqlar, ayının ən çox sevdiyi qida hansıdır?

**Tədqiqat sualı:** "Arılar və ayı" şəklində gördükləriniz haqqında nə deyə bilərsiniz?

**Tədqiqatın aparılması.** Müəllim şagirdlərin diqqətini "Sevimli kitabım"şəklinə yönəldir. Hər bir sagirdə fərdi yanaşaraq, mətni şagirdlərə oxutdurur, sonra şəklə əsasən suallar verir:

1. Ayı arı şanını nə üçün yaladı? (bal yemək üçün)
2. Ayı nə üçün suya atıldı? (arılardan canını qurtarmaq)

"Arılar və ayı" mətni şagirdlər tərəfindən hecalanaraq oxunur və onlar mətn haqqında düşüncələrini bölüşürlər.

**Tətbiqetmə.** *Tapşırıq N 1, 2 (səh. 10); 3, 4 (səh. 11).*

Müəllim səhifə 11-dəki 5-ci tapşırığı şagirdlərin dəftərlərinə yazdırır.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

**MÖVZU: İşıqfor**

**Təlim məqsədləri:**

- Şagird işıqforu tanıyır, rənglərinin mənasını bilir.
- Oxu bacarıqları inkişaf etdirilir.

LAYİHƏ

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Kollektiv iş, fərdi iş | Diskussiya və müşahidə | Nitq inkişafı, həyat bilgisi, riyaziyyat | Dərslik, mətnə aid şəkil nümunələri |

**Motivasiya.** Müəllim lövhəyə işıqforun şəklini asır və şagirdlərin diqqətini mövzuya yönəltmək məqsədi ilə onlara sual verir:

– İşıqforda neçə rəng var?

**Tədqiqat sualı:** İşıqforda olan rənglər nəyi ifadə edir?

**Tədqiqatın aparılması.** Müəllim şagirdlərin diqqətini "İşıqfor"şəklinə yönəldir. Hər bir sagirdə fərdi yanaşaraq, mətni şagirdlərə oxutdurur, sonra şəklə əsasən suallar verir:

1. Zəhra hara gedirdi?(məktəbə)
2. Yol polisi nə dedi? (Əvvəl işıqfora bax, sonra keç).

"İşıqfor" mətni şagirdlər tərəfindən, hecalanaraq oxunur və onlar mətn haqqında düşüncələrini bölüşürlər.

**Tətbiqetmə.** *Tapşırıq N 1, 2 (səh. 14); 3,4,5 (səh 15).*

Müəllim səhifə 15-də olan tapşırığı şagirdlərin dəftərlərinə yazdırır.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## MÖVZU: Balaca küçük

**Təlim məqsədləri:**

- Şagirdlərə heyvanlara sevgi aşılamaq.
- Oxu bacarıqları inkişaf etdirilir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Kollektiv iş, fərdi iş | Diskussiya və müşahidə | Nitq inkişafı, həyat bilgisi, riyaziyyat | Dərslik,it və küçük şəkli |

**Motivasiya.** Müəllim şagirdlərin diqqətini mövzuya yönəltmək məqsədi ilə onlara üzərində it və küçük şəkilləri olan kartları göstərərək sual verir:

LAYİHƏ

– Uşaqlar, itin balasına nə deyilir?(küçük)

– Sizin ən  çox sevdiyiniz heyvan hansıdır?(müxtəlif cavablar verilir).

Müəllim dərslikdəki “Balaca küçük” mövzusunda olan şəkli şagirdlərə göstərərək qısa məlumat verir.

**Tədqiqat sualı:** Şəkildə nə təsvirolunub?

**Tədqiqatın aparılması.** Müəllim şagirdlərin diqqətini “Balaca küçük” şəklinə yönəldir. Hər bir sagirdə fərdi yanaşaraq, mətni şagirdlərə oxutdurur,  sonra şəklə əsasən suallar verir:

1. Uşaqlar küçüyü harada gördülər? (yolda)
2. Onlar küçüyə nə üçün süd verdilər? (küçük ac olduğu üçün)

“Balaca küçük” mətni şagirdlər tərəfindən hecalanaraq oxunur və onlar mətn haqqında düşüncələrini bölüşürlər.

**Tətbiqetmə.** *Tapşırıq N 1,2 (səh.16); 4,5 (səh.17).*

Müəllim səhifə17-də olan tapşırığı şagirdlərin dəftərlərinə yazdırır.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

Qeyd: **Heyvanlara verilən adlar böyük hərflə yazılır.**

## MÖVZU: Bakı

**Təlim məqsədləri:**

- Şagirdlər Bakı haqqında məlumat alırlar.
- Oxu bacarıqları inkişaf etdirilir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Kollektiv iş, fərdi iş | Diskussiya və müşahidə | Nitq inkişafı, həyat bilgisi, riyaziyyat | Dərslik, üzərində Bakı şəkilləri olan kartlar. |

**Motivasiya.** Müəllim uşaqların diqqətini cəlb etmək məqsədi ilə üzərində Bakının təsviri olan fotoşəkli şagirdlərə göstərərək sual verir:

– Uşaqlar, şəkildə hara təsvir olunub? (Bakı şəhəri)

LAYİHƏ

**Tədqiqat sualı:** Bakı haqqında nə bilirsiniz?

**Tədqiqatın aparılması.** Müəllim şagirdlərin diqqətini "Bakı" şəklinə yönəldir. Hər bir sagirdə fərdi yanaşaraq mətni şagirdlərə oxutdurur, sonra şəklə əsasən suallar verir:

1. Lalə gəzməyə kim ilə getdi? (atası ilə).
2. Lalə atasına nə dedi? (şəhərimizin gözəl olduğunu).
3. Şəhərin adı nə idi? (Bakı).

"Bakı" mətni şagirdlər tərəfindən hecalanaraq oxunur və onlar mətn haqqında düşüncələrini bölüşürlər

**Tətbiqetmə.** *Tapşırıq N 1, 2 (səh. 18); 3, 4 (səh.19).*

Müəllim səhifə19-da olan tapşırığı şagirdlərin dəftərlərinə yazdırır.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

Qeyd: **Respublika, şəhər, rayon, kənd adları böyük hərflə yazılır.**

## MÖVZU: Ağlama, Mərcan.

**Təlim məqsədləri:**

- Şagirdlərin əzbərləmə qabiliyyəti inkişaf etdirilir.
- Oxu bacarıqları inkişaf etdirilir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Kollektiv iş, fərdi iş | Diskussiya və müşahidə | Nitq inkişafı, həyat bilgisi, riyaziyyat | Dərslik, üzərində mətbəx əşyalarının şəkli olan kartlar və ya oyuncaqlar |

**Motivasiya.** Müəllim şagirdlərin diqqətini mövzuya yönəltmək məqsədi ilə onlara üzərində mətbəx əşyalarının şəkli olan kartları göstərərək sual verir:

– Uşaqlar, hansı mətbəx əşyası ilə su və ya çay içirlər? (fincan).

Müəllim dərslikdəki "Ağlama, Mərcan" mövzusunda olan şəkli şagirdlərə göstərərək, mövzu haqqında onlara məlumatverir.

**Tədqiqat sualı:** Şəkildə nətəsvir olunub?

**Tədqiqatın aparılması.** Müəllim şagirdlərin diqqətini "Ağlama, Mərcan" şəklinə yönəldir. Hər bir sagirdə fərdi yanaşaraq şəklə əsasən suallar verir:

LAYİHƏ

1. Mərcanın əlində nə var idi? (fincan)

2. Fincan niyə sındı? (Mərcan yıxıldığı üçün)

3. Atası ona nə dedi? (Mərcana yeni fincan alacağını)

"Ağlama, Mərcan" şeri şagirdlər tərəfindən hecalanaraq oxunur və müəllimin köməyi ilə onlara əzbərlətdirilir.

**Tətbiqetmə.** *Tapşırıq N 1, 2 (səh. 22); 3, 4, 5 (səh. 23).*

Müəllim səhifə 23-də olan tapşırığı şagirdlərin dəftərlərinə yazdırır.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

**MÖVZU: Sağlam olun!**

**Təlim məqsədləri:**

- Uşaqlara sağlamlığın mahiyyəti öyrədilir.
- Oxu bacarıqları inkişaf etdirilir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Kollektiv iş, fərdi iş | Diskussiya və müşahidə | Nitq inkişafı, həyat bilgisi, riyaziyyat | Dərslik, üzərində bağ və bağban şəkilləri olan kartlar. |

**Motivasiya.** Müəllim şagirdlərin diqqətini mövzuya yönəltmək məqsədi ilə onlara üzərində ağaclarla zəngin olan bağ şəklini göstərərək sual verir:

– Uşaqlar, şəkildə nə görürsünüz? (ağaclar)

– Ağaclara kim qulluq edir? (bağban)

**Tədqiqat sualı:** Şəkildə hara təsvir olunub?

**Tədqiqatın aparılması.** Müəllim şagirdlərin diqqətini "Sağlam olun!" şəklinə yönəldir. Hər bir sagirdə fərdi yanaşaraq mətni şagirdlərə oxutdurur, daha sonra şəklə əsasən suallar verir:

1. Bağban nə edir? (ağaclara qulluq edir).

2. Uşaqlar ona necə kömək edirlər? (ağacları sulayırlar).

3. Bağban uşaqlara nə dedi? (İşləyin ki, canınız sağlam olsun).

LAYİHƏ

“Sağlam olun!” mətni şagirdlər tərəfindən hecalanaraq oxunur və onlar mətn haqqında düşüncələrini bölüşürlər.

**Tətbiqetmə.** *Tapşırıq N 1, 2 (səh. 24); 3, 4 (səh. 25), şeir.*

Müəllim səhifə 25-də olan tapşırığı şagirdlərin dəftərlərinə yazdırır.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

Qeyd: **Bu işarənin adı nöqtədir (.) Nöqtə işarəsi cümlənin sonunda qoyulur.**

## MÖVZU: Əlaçı

**Təlim məqsədləri:**

- Uşaqlara oxuya maraq aşılamaq.
- Oxu bacarıqları inkişaf etdirilir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Kollektiv iş, fərdi iş | Diskussiya və müşahidə | Nitq inkişafı, həyat bilgisi, riyaziyyat | Dərslik, üzərində kitab şəkilləri olankartlar və kitab. |

**Motivasiya.** Müəllim şagirdlərin diqqətini mövzuya yönəltmək məqsədi ilə onlara kitab göstərərək sual verir:

– Uşaqlar, kitab nə üçündür? (oxumaq üçün).

– Sizin sevdiyiniz kitab hansıdır? (müxtəlif cavablar səsləndirilir).

Müəllim dərslikdə “Əlaçı” mövzusunda olan şəkli şagirdlərə göstərərək, mövzu haqqında məlumat verir.

**Tədqiqat sualı:** Şəkildə hara təsvir olunub?

**Tədqiqatın aparılması.** Müəllim şagirdlərin diqqətini “Əlaçı” mövzusunda verilən şəklinə yönəldir. Hər bir sagirdə fərdi yanaşaraq, mətni şagirdlərə oxutdurur, sonra şəklə əsasən suallar verir:

1. Günay necə oxuyur? (yaxşı).
2. Ona dərslərini hazırlamaqda kim kömək edir? (qardaşı Kamil).

“Əlaçı” mətni şagirdlər tərəfindən hecalanaraq oxunur və onlar mətn haqqında düşüncələrini bölüşürlər.

LAYİHƏ

**Tətbiqetmə.** *Tapşırıq N 1, 2 (səh. 26); 3, 4 (səh 27).*

Müəllim səhifə 27-də tapşırıqlar olan şagirdlərin dəftərlərinə yazdırır.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## MÖVZU: Düzgün cavablar

**Təlim məqsədləri:**

- Şagirdlərin oxu bacarıqları inkişaf etdirilir.
- Şagirdlərin əzbərləmə bacarıqları inkişaf etdirilir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Kollektiv iş, fərdi iş | Diskussiya və müşahidə | Nitq inkişafı, həyat bilgisi, riyaziyyat | Dərslik, çəmənlik,gül-çiçək, kəpənək şəkilləri |

**Motivasiya.** Müəllim şagirdlərin diqqətini mövzuya yönəltmək məqsədi ilə gül-çiçək, çəmənlik və kəpənəyin təsvir olunduğu şəkli göstərərək şagirdlərə sual verir:

– Uşaqlar, şəkildə nələr təsvir olunub? (gül-çiçək, çəmənlik, kəpənək)

**Tədqiqat sualı:** Şəkildə gördüyünüz mənzərə hansı fəslə aiddir?

**Tədqiqatın aparılması.** Müəllim şagirdlərin diqqətini “Düzgün cavablar” şəklinə yönəldir. Hər bir sagirdə fərdi yanaşaraq, şəkil üzrə müsahibə aparır. Hər bir şagird öz cavabını səsləndirir. Müəllim olaraq sual işarəsi barədə şagirdlərə qısa məlumat verir.

**Tətbiqetmə.** *Tapşırıq N 1, 2, 3, (səh. 30); 4 (səh. 31).*

Müəllim səhifə 31 də olan 5, 6 nömrəli tapşırıqları şagirdlərin dəftərlərinə yazdırır.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

Qeyd: Sual vermək məqsədi ilə istifadə olunan durğu işarəsinə sual işarəsi deyilir.

LAYİHƏ

## MÖVZU: Tütək

**Təlim məqsədi:**

- Şagirdlərin oxu bacarıqları inkişaf etdirilir

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Kollektiv iş, fərdi iş | Diskussiya və müşahidə | Nitq inkişafı, həyat bilgisi, riyaziyyat | Dərslik, quş və tütək şəkli |

**Motivasiya.** Müəllim şagirdlərin diqqətini mövzuya yönəltmək məqsədi ilə onlara musiqi alətlərinin şəklini göstərərək sual verir:

– Uşaqlar, şəkildə gördükləriniz nədir? (musiqi alətləri)

– Bəs deyə bilərsinizmi, tütək hansıdır?

**Tədqiqat sualı:** Şəkildə hansı musiqini alətini görürsünüz?

**Tədqiqatın aparılması.** Müəllim şagirdlərin diqqətini "Tütək" mətninə yönəldir. Hər bir sagirdə fərdi yanaşaraq mətni şagirdlərə oxutdurur, sonra şəklə əsasən suallar verir:

1. Quşlar harada idi? (bağçada)
2. Bağçadan nə tapdılar? (tütək)
3. Hansı quş tütəyi gözəl çaldı? (bülbül)

Müəllim nida işarəsi barədə şagirdlərə qısa məlumat verir.

**Tətbiqetmə.** *Tapşırıq N 1, 2 (səh. 32 ), 3 (səh. 33).*

Müəllim səhifə 33-də tapşırıq 4-ü və hüsnxət nümunələrini şagirdlərin dəftərlərinə yazdırır.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

Qeyd: **Bu (!) durğu işarəsi nida işarəsidir.**

## MÖVZU: Ayı balası

**Təlim məqsədləri:**

- Şagirdlərin oxu bacarıqları inkişaf etdirilir.
- Bulağın nə olduğunu uşaqlara izah etmək.

LAYİHƏ

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
| --- | --- | --- | --- | --- |
| İnduktiv | Kollektiv iş, fərdi iş | Diskussiya və müşahidə | Nitq inkişafı, həyat bilgisi, riyaziyyat | Dərslik,ayı və bulaq rəsmi. |

**Motivasiya.** Müəllim şagirdlərin diqqətini mövzuya yönəltmək məqsədi ilə onlara bulaq şəklini göstərir və sual verir:

– Uşaqlar, şəkildə gördüyünüz nədir? (bulaq)

– Bulaqdan nə axır? (su)

**Tədqiqat sualı:** Uşaqlar, şəkildə hansı heyvan və onun balası təsvir olunub?

**Tədqiqatın aparılması.** Müəllim şagirdlərin diqqətini "Ayı balası" şəklinə yönəldir. O, hər bir şagirdə fərdi yanaşaraq mətni şagirdlərə oxutdurur, sonra şəklə əsasən suallar verir:

1. Ayı balası hara gəzməyə getdi?(meşəyə).
2. Meşədə nə gördü? (bulaq)
3. Bulağı görəndə nə dedi? (su da yuvadan çıxıb axır)

**Tətbiqetmə.** *Tapşırıq N 1, 2, (səh. 34).*

Müəllim səhifə 35-də 3, 4-cü tapşırıqları və hüsnxət nümunələrini şagirdlərin dəftərlərinə yazdırır.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## MÖVZU: Saat

**Təlim məqsədləri:**

- Şagirdlərin oxu bacarıqları inkişaf etdirilir.
- Şagirdlərin əzbərləmə qabiliyyəti inkişaf etdirilir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
| --- | --- | --- | --- | --- |
| İnduktiv | Kollektiv iş, fərdi iş | Diskussiya və müşahidə | Nitq inkişafı, həyat bilgisi, riyaziyyat | Dərslik,saat növlərinin şəkilləri. |

**Motivasiya.** Müəllim şagirdlərin fikrini dərsə yönəltmək məqsədi ilə onlara saat şəklini göstərərək sual verir:



LAYİHƏ

– Uşaqlar, bu nədir?(saat).

– Biz saatdan nə üçün istiadə edirik?(vaxtı bilmək üçün).

**Tədqiqat sualı:** Hansı saat növlərini tanıyırsınız?

**Tədqiqatın aparılması.** Müəllim uşaqlara saat növləri haqqında qısa məlumat verir. "Saat" şerini əvvəlcə müəllim ifadəli oxuyur, sonra hecalarla şagirdlərə oxutdurur. Müəllimin köməyi ilə şeir əzbərlətdirilir.

**Tətbiqetmə.** *Tapşırıq N 1, 2, 3 (səh. 38); tapşırıq 4 (səh. 39)*

Müəllim səhifə 39-da 5, 6-cı tapşırıqları və hüsnxət nümunələrini şagirdlərin dəftərlərinə yazdırır.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

**MÖVZU: Yağış**

**Təlim məqsədləri:**

- Şagirdlərin oxu bacarıqları inkişaf etdirilir.
- Şagirdlər giləmeyvələr haqqında məlumat əldə edirlər.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Kollektiv iş, fərdi iş | Diskussiya və müşahidə | Nitq inkişafı, həyat bilgisi, riyaziyyat | Dərslik, üzərində giləmeyvə,yağış və çətir şəkli olan kartlar. |

**Motivasiya.** Müəllim şagirdlərin diqqətini mövzuya yönəltmək məqsədi ilə onlara çətir şəklini göstərərək sual verir:

– Uşaqlar, biz çətirdən nə zaman istifadə edirik? (yağış yağan zaman)

**Tədqiqat sualı:** Uşaqlar, hansı giləmeyvələri tanıyırsınız?

**Tədqiqatın aparılması.** Müəllim şagirdlərin diqqətini “Yağış” mətninə yönəldir. Hər bir şagirdə fərdi yanaşaraq, mətni şagirdlərə oxutdurur, sonra şəklə əsasən suallar verir:

LAYİHƏ

1. Uşaqlar hara getdilər? (dağa)

2. Meşədə nə dərdilər? (moruq)

3. Ağacın altında nə üçün oturdular? (yağış yağdığı üçün)

**Tətbiqetmə.** *Tapşırıq N 1,2, 3 (səh. 40); 4,6 (səh 41).*

Müəllim səhifə 41-dəki 5, 7-ci tapşırıqları və hüsnxət nümunələrini şagirdlərin dəftərlərinə yazdırır.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## MÖVZU: Kirpi

**Təlim məqsədləri:**

- Şagirdlərin oxu bacarıqları inkişaf etdirilir.
- "Tərəvəzlər" mövzusu təkrarlanır.
- "K" hərfinin 2 cür səslənməsi haqqında məlumat yada salınır.
- Səs və hərfin fərqi haqqında məlumat yada salınır.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Kollektiv iş, fərdi iş | Diskussiya və müşahidə | Nitq inkişafı, həyat bilgisi, riyaziyyat | Dərslik, tərəvəz,heyvan və kirpi şəkilləri olan kartlar |

**Motivasiya.** Müəllim şagirdlərin diqqətini mövzuya yönəltmək məqsədi ilə onlara kirpi şəklini göstərərək sual verir:

– Uşaqlar, şəkildə gördüyünüz hansı heyvandır? (kirpi)

**Tədqiqat sualı:** Uşaqlar, hansı tərəvəzləri tanıyırsınız?

**Tədqiqatın aparılması.** Müəllim şagirdlərin diqqətini "kirpi" şəklinə yönəldir. Müəllim hər bir şagirdə fərdi yanaşaraq mətni şagirdlərə oxutdurur, sonra şəklə əsasən suallar verir:

1. Dirrikdə neçə uşaq var idi? (2 uşaq)

2. Uşaqlar nə edirdilər? (kartof və kələm yığırdılar)

3. Kəmalə niyə qışqırdı? (kirpini gördüyü üçün)

LAYİHƏ

**Tətbiqetmə.** *Tapşırıq N 1, 2 (səh. 42); 4 (səh.43).*

Müəllim səhifə 42-də 3-cü, səhifə 43-də 5, 6-cı tapşırıqları və hüsnxət nümunələrini şagirdlərin dəftərlərinə yazdırır.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

Qeyd: **"K" hərfi 2 cür səslənir :1. Ke-kələm, 2. Ka-kartof**

**Səs–deyirik, eşidirik.**

**Hərf–yazırıq, görürük.**

**MÖVZU: Ana yurdum**

**Təlim məqsədləri:**

- Şagirdlərin oxu bacarıqları inkişaf etdirilir.
- Şagirdlərin əzbərləmə qabiliyyəti inkişaf etdirilir.
- Vətənpərvərlik hisslərini aşılamaq.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Kollektiv iş, fərdi iş | Diskussiya və müşahidə | Nitq inkişafı, həyat bilgisi, riyaziyyat | Dərslik, Azərbaycanı əks etdirən şəkillər və bayraq. |

**Motivasiya.** Müəllim şagirdlərin diqqətini mövzuya yönəltmək məqsədi ilə onlara Azərbaycan bayrağını göstərərək sual verir:

– Uşaqlar, gördüyünüz bayraq hansı ölkənin bayrağıdır? (Azərbaycanın)

**Tədqiqat sualı:** Bizim vətənimiz haqqında nə bilirsiniz?

**Tədqiqatın aparılması.** Müəllim şagirdlərin diqqətini "Ana yurdum" şəklinə yönəldir. Şəkil üzrə danışdıqdan sonra şeir əvvəlcə müəllim tərəfindən oxunur, sonra şagirdlər tərəfindən hecalanaraq oxunur. Müəllimin köməyi ilə əzbərlənir.

**Tətbiqetmə.** *Tapşırıq: N 1, 2 (səh. 46); 3, 4 (səh.47).*

Müəllim səhifə 47-də 5-ci tapşırığı və hüsnxət nümunələrini şagirdlərin dəftərlərinə yazdırır.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

LAYİHƏ

## MÖVZU: Zəfər günü

**Təlim məqsədləri:**

- Şagirdlərin oxu bacarıqları inkişaf etdirilir.
- Zəfər günü haqqında məlumat verilir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Kollektiv iş, fərdi iş | Diskussiya və müşahidə | Nitq inkişafı, həyat bilgisi, riyaziyyat | Dərslik, uzərində Qarabağı əks etdirən şəkillər. |

**Motivasiya.** Müəllim şagirdlərin diqqətini mövzuya yönəltmək məqsədi ilə onlara əsgər şəkli göstərərək sualverir:

– Uşaqlar, şəkildə gördüyünüz kimdir? (əsgər)

**Tədqiqat sualı:** Vətənin keşiyində kimlər durur?

**Tədqiqatın aparılması.** Müəllim şagirdlərin diqqətini “Zəfər günü” şəklinə yönəldir. Hər bir şagirdə fərdi yanaşaraq, mətni şagirdlərə oxutdurur, sonra şəklə əsasən suallar verilir:

1. Atası Orxana nə aldı?( kitab)
2. Kitabın adı nə idi? (“Zəfər günü”)
3. Kitabda nədən bəhs olunur? (ikinci Qarabağ müharibəsindəki zəfərimizdən)

**Tətbiqetmə.** *Tapşırıq N 1, 2 (səh. 48); 3 (səh. 49).*

Müəllim səhifə 49-da olan 4 və 5-ci tapşırıqlar və hüsnxət nümunələrini şagirdlərin dəftərlərinə yazdırır.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## MÖVZU: Mehriban

**Təlim məqsədləri:**

- Şagirdlərin oxu bacarıqları inkişaf etdirilir.
- “Mehriban” sözünün mənası izah edilir.
- İnsan adlarının ilk hərfinin böyük yazıldığını bilirlər.

LAYİHƏ

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Kollektiv iş, fərdi iş | Diskussiya və müşahidə | Nitq inkişafı, həyat bilgisi, riyaziyyat | Dərslik, qız şəkli. |

**Motivasiya.** Müəllim şagirdlərin diqqətini mövzuya yönəltmək məqsədi ilə lövhədən qız şəkli asaraq onlara təklif edir:

– Uşaqlar, gəlin bu qıza ad qoyaq. (hərə öz qoyduğu adı səsləndirir).

**Tədqiqat sualı:** Uşaqlar sizin adınızı kim qoyub?

**Tədqiqatın aparılması.** Müəllim şəkil üzrə danışdıqdan sonra mətni oxuyur, sonra uşaqlara hecalatdıraraq oxutdurur.

Şagirdlərin diqqətini "Mehriban" sözünə yönəldir.

– Uşaqlar, mətndəki qızın adı nədir? (Mehriban)

**Tətbiqetmə.** *Tapşırıq N 1,2, 3 (səh. 50).*

Müəllim səhifə 51-də 4 və 5-ci tapşırıqları və hüsnxət nümunələrini şagirdlərin dəftərlərinə yazdırır.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

Qeyd: **Sözlər hərflərdən yaranır.**

## MÖVZU: Gəldi bahar...

**Təlim məqsədləri:**

- Şagirdlərin oxu bacarıqları inkişaf etdirilir.
- Şagirdlərin əzbərləmə bacarıqları inkişaf etdirilir
- Novruz bayramı haqqında məlumat verilir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Kollektiv iş, fərdi iş | Diskussiya və müşahidə | Nitq inkişafı, həyat bilgisi, riyaziyyat | Dərslik,bahar fəsli və Novruz bayramını əks etdirən şəkillər. |

LAYİHƏ

**Motivasiya.** Müəllim şagirdlərin diqqətini mövzuya yönəltmək məqsədi ilə bahar fəslinin təsvir olunduğu şəkli lövhədən asaraq onlara sual verir:

– Uşaqlar, şəkildə hansı fəsil təsvir olunub? (bahar fəsli)

**Tədqiqat sualı:** Novruz bayramı hansı fəsildə qeyd olunur?

**Tədqiqatın aparılması.** Müəllim şagirdlərin diqqətini "Gəldi bahar" şeirinə yönəldir. Şeir müəllim tərəfindən intonasiya ilə səsləndirilir, sonra şagirdlər tərəfindən hecalanaraq oxunur. Sonda şeir müəllimin köməyi ilə əzbərlənir. Novruz bayramı haqqında uşaqlara məlumat verilir.

**Tətbiqetmə.** *Tapşırıq N 1, 2, 3 (səh. 54); 4, 5,6 (səh. 55).*

Müəllim səhifə 55-dəki 7-ci tapşırığı və hüsnxət nümunələrini şagirdlərin dəftərlərinə yazdırır.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## MÖVZU: "Ana" şeri

**Təlim məqsədləri:**

- Şagirdlərin oxu bacarıqları inkişaf etdirilir.
- Şagirdlərin əzbərləmə qabiliyyəti inkişaf etdirilir
- Uşaqlara ana məhəbbəti aşılanır.
- 8 Mart Beynəlxalq Qadınlar günü haqqında məlumat verilir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Kollektiv iş, fərdi iş | Diskussiya və müşahidə | Nitq inkişafı, həyat bilgisi, riyaziyyat | Dərslik, ana və bala rəsmi,ailə üzvlərinin təsviri olan fotoşəkillər. |

**Motivasiya.** Müəllim üzərində ana və bala təsviri olan şəkli lövhədən asır və şagirdlərin diqqətini mövzuya cəlb etmək məqsədi ilə sual verir:

– Uşaqlar, şəkildə kimlər təsvir olunub? (ana və bala)

LAYİHƏ

**Tədqiqat sualı:** Sizin ailə üzvləriniz kimlərdən ibarətdir?

**Tədqiqatın aparılması.** Müəllim şagirdlərin diqqətini "Ana" şeirinə yönəldir. Şeir müəllim tərəfindən intonasiya ilə səsləndirilir, sonra şagirdlər tərəfindən hecalanaraq oxunur. Sonda şeir müəllimin köməyi ilə əzbərlənir 8 Mart Beynəlxalq Qadınlar Günü haqqında şagirdlərə qısa məlumat verilir.

**Tətbiqetmə.** *Tapşırıq N 1,2 (səh. 56); 3 (səh.57).*

Müəllim səhifə 57-də olan 4 və 5-ci tapşırıqlar və hüsnxət nümunələrini şagirdlərin dəftərlərinə yazdırır.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## MÖVZU: Təmizkar Lalə

**Təlim məqsədləri:**

- Şagirdlərin oxu bacarıqları inkişaf etdirilir
- Təmizkarlığın əhəmiyyəti barədə məlumat verilir.
- Uşaqlara şəxsi gigiyena qaydaları aşılanır.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Kollektiv iş, fərdi iş | Diskussiya və müşahidə | Nitq inkişafı, həyat bilgisi, riyaziyyat | Dərslik, gigiyena qaydalarını əks etdirən fotoşəkillər. |

**Motivasiya.** Müəllim lövhədən səhər yuxudan oyanan uşaq şəkli asır və şagirdlərə sual verir:

– Uşaqlar, siz yuxudan oyandıqdan sonra əvvəlcə nə edirsiniz? (fərqli cavablar səsləndirilir).

**Tədqiqat sualı:** Diş fırçası, əl sabunu və əl-üz dəsmalından necə istifadə edirik?

**Tədqiqatın aparılması.** Müəllim şagirdlərin diqqətini "Təmizkar Lalə"şəklinə yönəldir. Hər bir sagirdə fərdi yanaşaraq, mətni şagirdlərə oxutdurur, sonra şəklə əsasən suallar verilir:

1. Lalənin neçə yaşı var? (7 yaşı)
2. O, səhərlər nə edir? (idman edir dəfə)
3. Dişlərini neçə dəfə yuyur? (2)

LAYİHƏ

**Tətbiqetmə.** *Tapşırıq: 1, 2, (səh. 58), 4, 5 (səh. 59)*

Müəllim səhifə 58-də olan 3-cü, səhifə 59-da 5-ci tapşırıqları və hüsnxət nümunələrini şagirdlərin dəftərlərinə yazdırır.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

Qeyd: **Hərflərdən sözlər, sözlərdən isə cümlə yaranır.**

## MÖVZU: Pambıq

**Təlim məqsədləri:**

- Şagirdlərin oxu bacarıqları inkişaf etdirilir
- Pambıq bitkisi haqqında məlumat verilir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Kollektiv iş, fərdi iş | Diskussiya və müşahidə | Nitq inkişafı, həyat bilgisi, riyaziyyat | Dərslik,pambıq və pambıq tarlasının şəkli |

**Motivasiya.** Müəllim üzərində pambıq şəkli olan kartı lövhədən asır və şagirdlərin diqqətini mövzuya cəlb etmək məqsədi ilə sualverir:

– Uşaqlar, şəkildə gördüyünüz nədir?(pambıq)

**Tədqiqat sualı:** Pambıqdan nəcə istifadə olunur?

**Tədqiqatın aparılması.** Müəllim şagirdlərin diqqətini “Pambıq” şəklinə yönəldir. Hər bir şagirdə fərdi yanaşaraq mətni şagirdlərə oxutdurur, sonra şəklə əsasən suallar verilir.

1. Pambığı hansı fəsildə əkirlər? (yazda)
2. Hansı fəsildə yığırlar? (payızda)
3. Pambıqdan nə hazırlanır?

**Tətbiqetmə.** *Tapşırıq N 1, 2,(səhş 62); 3, 4 (səh.63).*

Müəllim səhifə 63-də olan 5-ci tapşırığı və hüsnxət nümunələrini şagirdlərin dəftərlərinə yazdırır.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

LAYİHƏ

## MÖVZU: 57. Yayda

**Təlim məqsədləri:**

- Şagirdlərin oxu bacarıqları inkişaf etdirilir.
- Yay fəsli və yay tətili haqqında məlumat verilir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Kollektiv iş, fərdi iş | Diskussiya və müşahidə | Nitq inkişafı, həyat bilgisi, riyaziyyat | Dərslik, dəniz rəsmi,yay fəslini əhatə edən şəkillər. |

**Motivasiya.** Müəllim şagirdlərin diqqətini mövzuya yönəltmək məqsədi ilə lövhəyə dəniz şəklini asaraq onlara sual verir:

– Şəkildə gördüyünüz nədir? (dəniz)

– Biz dənizə hansı fəsildə gedirik? (yay fəslində)

**Tədqiqat sualı:** Siz yay tətilini necə keçirirsriniz?

**Tədqiqatın aparılması.** Müəllim şagirdlərin diqqətini "Yayda" şəklinə yönəldir. Hər bir sagirdə fərdi yanaşaraq, mətni şagirdlərə oxutdurur, daha sonra şəklə əsasən suallar verir:

1. Pərviz nə vaxt dənizə getdi? (yay tətilində)
2. Dənizə kiminlə getdi? (atası ilə)
3. Sən yay tətilində nə edirsən? (hərə öz cavabını səslədirir)

**Tətbiqetmə.** *Tapşırıq N 1, 2, 3 (səh. 64); 4, 5 (səh. 65).*

Müəllim səhifə 65-də olan 5 və 6-cı tapşırığı və hüsnxət nümunələrini şagirdlərin dəftərlərinə yazdırır.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

LAYİHƏ

BURAXILIŞ MƏLUMATI

*Xüsusi məktəblərin*
*2-ci sinifləri üçün sadələşdirilmiş proqram əsasında hazırlanmış*
*Azərbaycan dili (tədris dili) fənni üzrə dərsliyin (qrif nömrəsi: 2021- )*
*metodik vəsaiti*

**Tərtibçi heyət**

Müəlliflər
**Farizə Nəbiyeva**
**Aygün Qasımova**
**Yeganə Məmmədəliyeva**
**Həbib Kərimov**
**Süleyman Kərimov**
**Könül Doxolova**

Layihə rəhbəri **Rəhilə Soltanqızı**
Dizayner **Nigar Feyzullayeva**
Texniki redaktor **Ruslan Mahmudov**
Korrektor **Kəklik Məmmədova**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və
yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq,
elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

Formatı 60x90 $^{1}/_{8}$. Həcmi ç.v. 8.
Şriftin adı və ölçüsü: məktəb qarnituru 12-14. Ofset çapı. Ofset kağızı.
Sifariş . Səhifə sayı 64. Tiraj: . Pulsuz. Bakı-2021

**Əlyazmanın yığıma verildiyi və çapa imzalandığı tarix:**

**Çaşıoğlu Eİ MMC**
Bakı ş. M. Müşfiq küç., 2 A.
Tel. 502-46-91

LAYİHƏ